RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 202 (9369) 19 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




2020-ci ildə hərb meydanından gələn zəfər xəbərləri ilə qürurlanan xalqımız, ondan sonrakı dövrdə də milli mənafeyimizin təmini ilə bağlı siyasi, diplomatik, beynəlxalq hüquq, informasiya, ümumiyyətlə, bütün sahələr üzrə dövlətimizin ard-arda qazandığı qələbələrlə fəxr edir.

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə apardığı müdrik siyasətin nəticəsidir ki, Azərbaycan işğala məruz qalan ölkədən zəfər ölkəsinə çevrilib. Qarabağ və Şərqi Zəngəzura yeni həyat verilib, Böyük qayıdış köçünə başlanılıb.

2023-cü il aprelin 23-də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi qurması ilə ölkəmiz bütün sərhədləri boyu üçrəngli bayrağımızı dalğalandıraraq suveren ərazilərimzin bütövlüyünü təmin edib.

Bu il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etməsi ilə Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində nəzarət-buraxılış məntəqəsini qurmaqla bağlı beynəlxalq qaydalar əsasında suveren hüquqa malik olduğunu rəsmi tanıdığını təsdiqlədi.

Milli maraqlarımızın təmini istiqamətində əldə edilən daha bir uğur isə ötən gün Xankəndi yolunun açılması oldu.

→ 4

# İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi Azərbaycan dövlətinin diqqət mərkəzindədir

## "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər mövzusuna həsr edilmiş beynəlxalq konfransda salamlayıram.

İtkin düşmüş şəxslər məsələsi Azərbaycanın üzləşdiyi ən ağır problemlərdən biridir və konfransın mövzusu ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 3890 vətəndaşımız itkin düşmüşdür. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin əsir-girov götürülməsi və ya vaxtilə işğal altında olmuş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar mövcuddur.

Etibarlı məlumatlara əsasən, itkin düşmüş şəxslər Ermənistan tərəfindən işgəncələrə məruz qalmış, qətlə yetirilmiş və Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində kütləvi məzarlıqlarda basdırılmışdır.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsi daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. 1993-cü ildə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradılmış və bu illər ərzində səmərəli fəaliyyət göstərmişdir.

2020-ci ildə Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün yeni imkanlar açdı. Lakin Ermənistan tərəfindən ərazilərimizin minalarla və partlamamış hərbi sursatlarla çirkləndirilməsi kütləvi məzarlıq yerlərinin müəyyən olunması, ekshumasiya işlərinin aparılması prosesinə ciddi maneələr yaradır.

Vətən müharibəsindən dərhal sonra Dövlət Komissiyasının imkanlarının gücləndirilməsi istiqamətində mühüm addımlar atılmış, işğaldan azad edilmiş ərazilərdə kütləvi məzarlıqların yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılmasına başlanılmışdır. Son iki ildə işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntılar nəticəsində 10 kütləvi məzarlıq aşkar edilmişdir. Aparılmış təxirəsalınmaz tədbirlər nəticəsində itkin düşmüş 15 nəfərin eyniləşdirilməsi mümkün olmuş və bu barədə ictimaiyyətə məlumat verilmişdir. Bu gün daha 10 nəfərlə bağlı əlavə məlumat təqdim ediləcək.

Mən taleyi müəyyən olunmuş itkin şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verir, onlara səbir diləyirəm. 30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir. Mən itkin ailələrini əmin edirəm ki, Vətən uğrunda döyüşlərdə itkin düşmüş bütün şəxslərin taleyinin aydınlaşdırılması üçün səylərimizi əsirgəməyəcəyik.

İtkin düşmüş şəxslər məsələsi postmünaqişə dövründə bütün aidiyyəti görüşlərdə, Ermənistanla aparılan danışıqlarda, xüsusilə Brüssel və Vaşinqton platformalarında tərəfimizdən xüsusi qabardılır. Təəssüf ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini kobud şəkildə pozaraq itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları Azərbaycan tərəfinə təqdim etmir. Bunun səbəbləri aydındır. Ermənistan hesab edir ki, bununla törətdiyi növbəti hərbi cinayətlərin, vəhşiliklərin üstü açılacaq. Beynəlxalq ictimaiyyət itkin düşmüş şəxslərin taleyinə və kütləvi məzarlıqlara dair məlumatların Azərbaycan tərəfinə təqdim edilməsi məqsədilə Ermənistana təzyiq göstərməlidir. Bu, sırf humanitar məsələdir və onun siyasiləşdirilməsi yolverilməzdir.

İtkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması barışıq baxımından da vacibdir. Bu sahədə əməkdaşlıq effektiv etimad quruculuğu tədbirlərindən biri ola bilər.

Silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsi qlobal problemdir. Azərbaycan bu məsələyə beynəlxalq müstəvidə diqqətin artırılması istiqamətində ciddi addımlar atmışdır. Ölkəmiz iki ildən bir BMT Baş Assambleyasında itkin düşmüş şəxslər mövzusunda qətnamə irəli sürür. Hesab edirik ki, BMT sistemində itkin düşmüş şəxslərlə bağlı xüsusi mexanizmin yaradılmasına ehtiyac var.

Əminəm ki, konfrans beynəlxalq ictimaiyyətin diqqətinin itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması kimi ağrılı məsələyə cəlb olunmasına öz töhfəsini verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2023-cü il*

# Azərbaycan sülh prosesinə sadiqdir

## Ölkədə akkreditə olunmuş diplomatik korpus üçün bölgədə son vəziyyətə dair brifinq keçirilib







Azərbaycan həll yolunu tapmaqda maraqlıdır və bunu öz vasitəçiliyini təklif edən bütün tərəflərlə səmimi fəaliyyəti ilə sübut edib. İstisna olmadan bütün hallarda Ermənistan tərəfi müxtəlif bəhanələrlə əldə edilmiş razılıqları pozub. Bunun yeganə səbəbi isə vəziyyəti uzatmaq, gərginliyi artırmaq və sonda normallaşma prosesini pozmaq olub.

Azərbaycanın sülh prosesinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən atdığımız ardıcıl addımlarla sübut edilib.

Azərbaycan Ermənistandan hərbi quruculuq fəaliyyətini dayandırmasını, revanşist planlardan əl çəkməsini, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmağı dayandırmasını və Azərbaycanın Qarabağ bölgəsində separatizm və terrorizmi dəstəkləməkdən əl çəkməsini tələb edir. Bununla yanaşı, Azərbaycan Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin dərhal çıxarılmasını, Ermənistana tabe qondarma rejimin hərbi və qondarma "hökumət" strukturlarının aradan qaldırılmasını və Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsini tələb edir.

→ 3

# Bakıda itkin düşmüş şəxslərin taleyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

Sentyabrın 18-də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı, xarici ölkələrin sabiq dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların, o cümlədən humanitar sahə üzrə fəaliyyət göstərən qurumların nümayəndələrinin, beynəlxalq siyasi ekspertlərin iştirakı ilə "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciəti oxunub.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev beynəlxalq tədbirin əhəmiyyətinə toxunub, mövzunun Azərbaycan üçün vacibliyinə diqqət çəkib. Dövlətimizin başçısının əsir və girov götürülmüş, itkin düşmüş şəxslərlə bağlı məsələyə daim xüsusi həssaslıqla yanaşdığını bildirən komissiya sədri Birinci Qarabağ müharibəsində itkin düşmüş 3890 vətəndaşımızın taleyinə aydınlıq gətirilməsi istiqamətində son illərdə görülmüş işlər barədə ətraflı məlumat verib. Bildirilib ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ölkəmiz xeyli sayda insan itkisinə, yüzlərlə şəhər və kəndlərimizin tamamilə dağıdılması ilə müşayiət olunan dəhşətli məhrumiyyətlərə məruz qalıb. Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlardır.

→ 4

# "Xınalıq və Köç yolu mədəni landşaftı" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib

Azərbaycanın mədəni irsi üçün əhəmiyyətini, köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada məsuliyyətli turizmin inkişaf etdirilməsi məqsədilə 4 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xınalıq və Köç Yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu yaradılıb.

"Xınalıq və Köç yolu" Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən dördüncü mədəni irs ərazisi oldu. Bundan əvvəl Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi də Ümumdünya İrs Siyahısına daxil edilib.

Bir gün öncə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Hirkan meşələri Azərbaycanın ilk təbiət irsi ərazisi olaraq UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

→ 5

# Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtomobilləri Ağdamdan Xankəndiyə yola düşüb

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əldə olunan razılığa əsasən sentyabrın 18-də səhər saatlarında Ağdam-Xankəndi yolunda komitəyə məxsus avtomobillərin keçidi təmin olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, BQXK-nın iki minik və bir yük avtomobili Ağdam-Xankəndi yolu ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gedib. Avtomobillərdə aparılan yükün Qarabağda yaşayan erməniəsilli şəxslərə çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, sentyabrın 12-də Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi humanitar yük avtomobilinin də Ağdam-Xankəndi yolu ilə keçidi təmin edilmişdi.

# COVID yenidən qayıdır

## Dünya həyəcan təbili çalır

Son bir ayda dünyada 1,5 milyon nəfər yeni növ koronavirus infeksiyasına yoluxub. Bu, daha çox virusun mutasiyalarının sürətlə yayılmasından qaynaqlanır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünya üzrə yoluxanların sayı 38 faiz artıb. Yoluxma sayında kəskin artım Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda qeydə alınıb.

Hazırda dünyanın bir sıra ölkələrindəki yoluxma sayındakı artım qabaqlayıcı addımların atılmasına səbəb olub. ÜST xəbərdarlıq edir ki, koronavirusun EG.5 D-19 ştammı "yüksəliş"dədir. Bu variantın dövr edən digər ştamları əvəz etməməsi faktı təşkilatın narahatçılığına səbəb olur.

→ 8



# Arif Məlikovun əsərləri Azərbaycan mədəniyyətinin qızıl fonduna daxildir

## Bəstəkar Arif Məlikovun 90 illik yubileyi və Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqi ictimaiyyətinə təbrik

Azərbaycan musiqi ictimaiyyətini, bütün musiqisevərləri 18 Sentyabr Milli Musiqi Günü münasibətilə təbrik edirəm.

Bu mədəniyyət bayramı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildən hər il ölkəmizdə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin doğum günündə təntənə ilə qeyd edilir.

Builki Milli Musiqi Günü həm də Azərbaycan mədəniyyətinin ən parlaq simalarından biri, görkəmli bəstəkar, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Arif Məlikovun 90 illik yubileyinin qeyd edilməsi ilə əlamətdardır.

Arif Məlikov Azərbaycan mədəniyyətinin yetirdiyi sənətkarlar nəslinin parlaq yaradıcılıq ənənələrini ləyaqətlə davam etdirmiş və milli musiqi salnaməmizə yeni səhifələr yazmışdır. Bəstəkarın musiqinin ən müxtəlif janrlarında yaratdığı əsərlər Azərbaycan mədəniyyətinin qızıl fonduna daxildir.

Mövzu zənginliyi və rəngarəngliyi, milli musiqi ənənələri ilə yeni düşüncənin vəhdətində formalaşan özünəməxsus üslub, dolğun məzmun, obrazların dərin emosional-psixoloji və fəlsəfi ifadəsi Arif Məlikov yaradıcılığının səciyyəvi xüsusiyyətidir.

Arif Məlikov bütün həyatı boyu Azərbaycana bağlı, onu ürəkdən sevən böyük şəxsiyyət idi. Əsl ziyalılıq və vətəndaşlıq mövqeyi, öz xalqına bağlılığı və dövlətinə sədaqəti ona ümumxalq məhəbbəti qazandırmışdır.

Bəstəkarın şah əsəri görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yaratdığı "Məhəbbət əfsanəsi" baletidir. XX əsr dünya balet musiqisinin incilərindən sayılan, yarım əsrdən artıq bir dövrdə məşhur teatr səhnələrini bəzəyən bu əsər musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir.

İlk dəfə 1961-ci ildə Sankt-Peterburqun Mariinski Teatrında səhnələşdirilmiş "Məhəbbət əfsanəsi" baleti sonralar 60-dan çox ölkədə nümayiş etdirilərək, müəllifə dünya şöhrəti qazandırmışdır.

Sevindirici haldır ki, bəstəkarın yaradıcılığının zirvəsi hesab olunan "Məhəbbət əfsanəsi" baleti uzun fasilədən sonra Heydər Əliyev Fondunun dəstəyi ilə bu gün yenidən müəllifin Vətənində səhnəyə qoyulur.

Arif Məlikovun yaradıcılıq irsi Azərbaycan xalqının mədəni sərvətidir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən, insanları mənəvi kamilliyə səsləyən Arif Məlikov musiqisi əbədi yaşayacaqdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2023-cü il*

# "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199; 2023, № 1, maddə 49, № 6, maddə 785) 1 nömrəli Əlavə - "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.6-cı bəndinə "şöbə müdiri," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; 2023, № 1, maddə 50, № 4, maddə 480, № 6, maddə 784) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.9.9-1-1.9.9-5-ci yarımbəndlər müvafiq olaraq 1.9.9-2-1.9.9-6-cı yarımbəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.9.9-1-ci yarımbənd əlavə edilsin:

"1.9.9-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;".

2. 2.1.2-ci yarımbəndin 8-1- 8-5-ci abzasları müvafiq olaraq 8-2-8-6-cı abzaslar hesab olunsun və həmin yarımbəndə aşağıdakı məzmunda 8-1-ci abzas əlavə edilsin:

"8-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2023-cü il*

# Xaçmaz rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (20 km)-Hülövlü-Sərkərli-Alıcqışlaq-Qədmalıqışlaq-Rəhimoba avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (20 km)-Hülövlü-Sərkərli-Alıcqışlaq-Qədmalıqışlaq-Rəhimoba avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.5-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,0 (on bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2023-cü il*

# Azərbaycan və Kubanı ənənəvi dostluq münasibətləri birləşdirir

**Milli Məclisin Sədri Sahibə Qafarova Kuba Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Xalq Hakimiyyəti Milli Assambleyasının sədri Xuan Esteban Lazo Hernandeslə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin rəhbərini səmimiyyətlə salamlayan Milli Assambleya Sədri Kuba Respublikasında keçirilən G77+Çin Sammitində iştirakına görə Sahibə Qafarovaya təşəkkür edib. Bildirib ki, Azərbaycanla Kuba arasında dostluq münasibətləri mövcuddur. Bu il Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın Azərbaycana səfəri zamanı yüksəksəviyyəli qonaqpərvərlik göstərilməsi bunun əyani sübutudur. Qeyd olunub ki, son illər Kubadan Azərbaycana rəsmi səfərlər artıb. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümü tamam olub. Coğrafi məsafəyə baxmayaraq, Azərbaycan və Kubanı ənənəvi dostluq münasibətləri birləşdirir. Ölkələrimiz arasında siyasi əlaqələr yaxşı səviyyədədir. Xalq Hakimiyyəti Milli Assambleyasının Sədri Xuan Esteban Lazo Hernandes Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində Kubaya dəstəyinin ölkəsi tərəfindən çox yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Bu il Azərbaycanda Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu vurğulanaraq, Kuba Respublikasının keçmiş rəhbəri Fidel Kastro ilə Ulu Öndər Heydər Əliyev arasındakı dostluq münasibətləri xatırlanıb. Görüşdə 1970-80-ci illərdə Azərbaycanda kubalı tələbələrin təhsil aldığı qeyd edilərək, bunun xalqlarımız arasında dostluq münasibətlərinin göstəricisi olduğu diqqətə çatdırılıb. Həmçinin bildirilib ki, Azərbaycanın Kubada səfirliyinin açılması bu ölkədə məmnunluqla qarşılanıb və bunun münasibətlərin inkişafına təkan verəcəyi qeyd edilib.

Bildirilib ki, Kuba hökuməti Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır. Bunun üçün böyük potensial mövcuddur. Səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə geniş imkanlar var. Görüşdə vurğulanıb ki, Kuba parlamenti də bu məsələdə öz dəstəyini əsirgəməyəcək. Bu müstəvidə parlamentlərarası əlaqələri inkişaf etdirmək üçün lazımi addımların atılacağı, parlamentlərin dostluq qruplarının qarşılıqlı səfərləri, əlaqələrin genişləndirilməsi, komitələr arasında da münasibətlərin inkişafının mümkünlüyü vurğulanıb.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Kubanın evsahibliyi etdiyi sammitin əhəmiyyətini diqqətə çəkib. O deyib ki, G77 çoxtərəfli əməkdaşlıq və üzv dövlətlərin qarşılıqlı dəstəyi üçün mühüm platformadır. Bu sammit ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi üçün yaxşı fürsətdir. O, inamını ifadə edib ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək.

Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan və Kuba beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında həmişə bir-birinin yanındadır. O cümlədən Kubanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində irəli sürdüyü təşəbbüsləri həmişə dəstəklədiyi qeyd edilib. Həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də Azərbaycan-Kuba əməkdaşlığı qeyd edilərək, şəbəkənin ötən il Bakıda keçirilən birinci konfransında Milli Assambleyanın vitse-prezidenti Ana Maria Moçadanın iştirak etdiyi bildirilib.

Milli Məclisin Sədri, Kuba Respublikasının Prezidenti Migel Diaz Kanelin 2019-cu ildə, vitse-prezidenti Salvador Antonio Valdes Mesanın bu ilin mart ayında Azərbaycana səfərlərindən bəhs edərək, belə yüksəksəviyyəli səfərlərin münasibətlərin inkişafına töhfə verdiyini bildirib, özünün Salvador Antonio Valdes Mesa ilə görüşünü məmnunluqla xatırlayıb.

Sahibə Qafarova ölkələrimiz arasında əlaqələrin inkişafında parlamentlərimizin də rol oynadığını qeyd edərək, əlavə edib ki, dostluq qruplarımızın təmaslarının artırılması, qarşılıqlı səfərlər və müntəzəm dialoq parlamentlərimiz arasında körpü rolunu oynaya bilərlər.

Milli Məclisin Sədri Sahibə Qafarova qarşı tərəfə həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın sülh təşəbbüsləri, Ermənistanın hərbi-siyasi təxribatları barədə də geniş məlumat verib.

Xuan Esteban Lazo Hernandes isə regiondakı vəziyyətdən xəbərdar olduqlarını və regionda sülh və sabitliyin bərpasının önəmini vurğulayıb.

Görüşdə daha sonra qeyd edilib ki, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlıq da xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı təmasların təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Milli Məclisin Sədri xatırladıb ki, 2010-cu ildə Kubada Azərbaycan mədəniyyət günləri keçirilib. Bu müsbət təcrübə qarşılıqlı şəkildə davam etdirilə və müxtəlif birgə mədəni tədbirlər keçirilə bilər. Spiker Sahibə Qafarova deyib ki, ölkəmiz Azərbaycan Prezidentinin bu ilin iyul ayında imzaladığı müvafiq sərəncamla yaradılmış "Heydər Əliyev Beynəlxalq Təhsil Qrant Proqramı" vasitəsilə təqaüdləri İƏT, Qoşulmama Hərəkatı və İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri (SIDS) coğrafiyasından olan ölkələrə də şamil etməyi hədəfləyir. O, kubalı tələbələri də bu proqramda iştirak etməyə çağırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

***"Azərbaycan"***

# Müharibə veteranlarına növbəti güzəşt

Sentyabrın 18-də Milli Məclisin Elm və təhsil komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda üç məsələ müzakirə edilib.



Komitənin sədri Bəxtiyar Əliyev əvvəlcə Milli Məclisin 2023-cü il yaz və növbədənkənar sessiyaları ərzində Elm və təhsil komitəsində görülmüş işlərin hesabatını təqdim edib. Qeyd olunub ki, hesabat dövründə komitənin 5 iclası keçirilib, 16 məsələyə baxılıb. Baxılan məsələlər barədə məlumat verən komitə sədri müzakirələrdən keçən qanun layihələrinin elm və təhsil sahəsində həyata keçirilən uğurlu islahatların hüquqi bazasının möhkəmləndirilməsinə xidmət etməsindən danışıb.

Keçən sessiyalar dövründə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Milli Məclis tərəfindən ölkə və beynəlxalq miqyasda keçirilən tədbirlərdən söz açan Bəxtiyar Əliyev deputatların, o cümlədən komitə üzvlərinin bu tədbirlərdə fəal iştirakını qeyd edib. Diqqətə çatdırılıb ki, hesabat dövründə komitəyə 227 müraciət daxil olub, onlarla bağlı müvafiq tədbir görülüb. Komitə sədri, həmçinin elm və təhsil sahəsinin aktual məsələləri ilə bağlı komitənin gördüyü işlərdən, keçirilən ictimai müzakirələrdən danışıb.

Elm və təhsil komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planı barədə qeyd edilib ki, sənəddə komitəyə daxil olacaq qanun layihələrinə, həmçinin digər sənədlərə baxılması nəzərdə tutulub. İş planında "Ali təhsil haqqında" qanun layihəsinin də müzakirəsinin nəzərdə tutulduğunu deyən komitə sədri layihə ilə bağlı görülən işlər barədə məlumat verib.

Gündəliyin son məsələsi olan "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri bildirib ki, layihədə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi təklif olunub.

Gündəlikdəki məsələlərin müzakirəsində komitənin sədr müavini Musa Qasımlı, komitə üzvləri İsa Həbibbəyli, Kamilə Əliyeva, Ceyhun Məmmədov, Etibar Əliyev, Anar İsgəndərov, Tamam Cəfərova, Müşfiq Məmmədli komitənin cari ilin yaz və növbədənkənar sessiyalarında görülən işlər, payız sessiyası üçün iş planı ilə bağlı fikirlərini açıqlayıblar, rəy və təkliflərini səsləndiriblər.

Müzakirəyə çıxarılan qanun layihəsini təqdir edən millət vəkilləri dəyişikliyi cənab Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasətinin, o cümlədən müharibə veteranlarına diqqət və qayğının növbəti təzahürü kimi dəyərləndiriblər.

Müzakirələrin sonunda komitə üzvləri 2023-cü ilin yaz və növbədənkənar sessiyaları ərzində Elm və təhsil komitəsində görülmüş işləri qənaətbəxş sayıblar, qarşıdakı payız sessiyası üçün komitənin iş planını təsdiqləyiblər, "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***"Azərbaycan"***

# Azərbaycan sülh prosesinə sadiqdir

## Ölkədə akkreditə olunmuş diplomatik korpus üçün bölgədə son vəziyyətə dair brifinq keçirilib

**Azərbaycanın cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərə baxmayaraq, Ermənistan və onun Azərbaycanın suveren ərazilərində qurduğu qondarma rejim normallaşma prosesinə xələl gətirməyə və gərginliyin azaldılmasına yönəlmiş bütün təklifləri rədd etməyə davam edir.**






Əksinə, Azərbaycan qarşı tərəfin israrla davam etdirdiyi təxribatçı addımlarla üzləşir. Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" bunun bariz nümunəsidir. Azərbaycanın bütün mesajlarına baxmayaraq, Ermənistan tərəfi öz yolundan dönmədi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər sentyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin müavini Fariz Rzayevin iştirakı ilə Xarici İşlər Nazirliyində ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün keçirilən brifinqdə səsləndirilib.

Brifinqdə həmçinin bildirilib ki, Türkiyə, Pakistan, Ukrayna, Böyük Britaniya, Gürcüstan, Moldova, Rumıniya, Macarıstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Almaniya, ABŞ, İran, habelə Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar bəyanat verərək qondarma və qanunsuz "seçkiləri" pisləyib, onun legitimliyini tanımayıblar.

Tədbirdə beynəlxalq hüququ dəstəkləyən və Ermənistan tərəfinin bu qanunsuz, qeyri-legitim və təxribat xarakterli addımına qarşı açıq şəkildə çıxış edən bütün dövlətlərə və beynəlxalq təşkilatlara təşəkkür ifadə olunub.

Diqqətə çatdırılıb ki, son bir neçə ay ərzində cəlb olunmuş bir sıra tərəfdaşlar, xüsusilə də Rusiya Federasiyası, ABŞ və Avropa İttifaqı vasitəsilə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni zamanda istifadə etməklə erməni sakinlərə yüklərin çatdırılmasına yönəlmiş səylər davam etdirilib.

Vurğulanıb ki, heç bir istisna olmadan bütün tərəfdaşlar bütün diplomatik müzakirələr zamanı Laçından və Ağdamdan eyni zamanda keçidin mövcud vəziyyətin legitim və ağlabatan həll yolu olduğunu təsdiqləyiblər.

Qeyd etmək lazımdır ki, eyni zamanda keçid üçün çağırışlar ABŞ Dövlət Departamentinin, Rusiya XİN-in, Avropa İttifaqı Şurasının Prezidentinin mətbuat katibinin verdiyi bəyanatlarda, habelə ATƏT-in Daimi Şurasının 12 sentyabr tarixli görüşü zamanı çıxışlarda səsləndirilib.

Sentyabrın 12-də uzun müddət davam edən müzakirələrdən və yubanmalardan sonra Rusiya Qırmızı Xaç Cəmiyyətinin yük avtomobilinin Ağdamdan Xankəndiyə keçidinin təmin olunduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, bunun aylardır müzakirə olunan eyni zamanda keçidlərin həyata keçirilməsi üçün bir təkan olacağı ilə bağlı bütün cəlb olunmuş tərəflərin ortaq gözləntisi olsa da, bu ümidlər bir daha boşa çıxdı.

Brifinqdə həmçinin aşağıdakı məqamlara diqqət çəkilib.

Sentyabrın 10-da ABŞ və digər tərəfdaşlar ilə yüksəksəviyyəli təmaslar zamanı Azərbaycan tərəfi Laçından keçid zamanı Azərbaycan Respublikasının milli sərhəd və gömrük nəzarət tələblərinin yerinə yetirilməsilə BQXK tərəfindən Laçın və Ağdamdan eyni zamanda keçid variantında sadiq olduğunu bir daha bildirib.

Sentyabrın 11-də BQXK tərəfindən yüklərin daşınmasına dair müvafiq müraciətlər aldıqdan qısa müddət sonra Azərbaycan tərəfi sözügedən yüklərin müraciətlərdə göstərildiyi kimi keçidinə şərait yaradılmasına hazır olduğunu bildirib və BQXK-dan eyni zamanda keçidin təşkil olunacağı tarix və vaxtın bildirilməsini sorğu edib. Buna cavab olaraq BQXK Azərbaycan tərəfinə bildirib ki, erməni tərəfindən yüklərin qəbul edilməsi və BQXK konvoylarının təhlükəsizliyinin təmin edilməsinə dair "yaşıl işıq" yoxdur.

Azərbaycan cəlb olunmuş beynəlxalq tərəfdaşların müraciətlərini davamlı və xoş niyyətlə cavablandıraraq Laçın və Ağdamdan eyni zamanda keçid üçün müxtəlif variantları nəzərdən keçirsə də, Ermənistan tərəfi davamlı şəkildə razılaşmalardan geri çəkildi və yeni bəhanələr irəli sürdü.

Ermənistan tərəfinin sözügedən yolların açılmasına davamlı etirazı yalnız siyasi xarakter daşıyır və hər hansı "humanitar böhran" məsələsilə heç bir əlaqəsi yoxdur. Ermənistanın məqsədi Azərbaycan ərazisində separatizmi qızışdırmaq üçün alət və vasitələri qoruyub saxlamaqdır. Sıravi sakinlər isə bu siyasi avantüranın girovu kimi saxlanılırlar.

Bu xüsusda, ABŞ Senatında bu yaxınlarda keçirilən ictimai dinləmə erməni lobbisini razı salmaq üçün təşkil edilmiş şoudan savayı bir şey deyildi. Təəssüf ki, Dövlət Departamentinin nümayəndəsi də erməni lobbiçilərinin təşviq etdiyi birtərəfli anti-Azərbaycan bəyanatlarına qoşulub.

Gömrük nəzarəti tələbləri də daxil olmaqla Azərbaycan qanunvericiliyinə riayət etməklə Laçın və Ağdam yollarından eyni zamanda keçid məsələsi artıq bir neçə həftədir ki, ABŞ tərəfi ilə müxtəlif səviyyələrdə müzakirə edilib. Bu baxımdan, indiki çıxılmaz vəziyyətin səbəbi ABŞ tərəfi üçün aydındır. Buna baxmayaraq, ABŞ Senatında verilən ifadə saxta erməni fikirlərini təkrarlayıb.

İyulun 15-də liderlərin Brüssel görüşündə və sentyabrın 1-də Azərbaycan Respublikası Prezidenti ilə ABŞ Dövlət katibi arasında telefon danışığında müzakirə edildiyi kimi, Azərbaycan həmişə hər iki yolun ardıcıl və paralel istifadəsini asanlaşdırmağa hazır olub. Lakin bir neçə aydır ki, erməni tərəfinin həllə biganəliyi, humanitar yardımın davamlı siyasiləşdirilməsi, separatizm və ayrılmaya rəvac verməsi səbəbindən baş tutmayıb. Digər səbəb isə Azərbaycanı tamamilə əsassız olan qondarma humanitar böhran yaratmaqda ittiham etmək idi. Təəssüf ki, bəzi ölkələrin siyasi dairələrinin bəzi üzvləri özlərini bu saxta ittihamlarla əlaqələndiriblər.

Sentyabrın 17-də Ermənistan tərəfinin Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel keçidlə malların qəbuluna razılıq verməsinə dair BQXK-dan ilkin məlumat aldıq. Bu gün BQXK-nın keçidlə bağlı şifahi notasını aldıqdan sonra saat 7-də biz BQXK-nın iki avtomobilinin birinin Ağdam-Xankəndi, digərinin isə Laçın-Xankəndi yolu ilə eyni vaxtda keçidini təşkil edə bildik ki, bu da Azərbaycana qarşı "blokada" ittihamlarının heç bir əsası olmadığını nümayiş etdirdi.

Eyni zamanda yüklərin çatdırılması məsələsi Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hədəf alan hərbi və siyasi təxribatlarının artması hallarından təcrid olunmayıb.

On min nəfərdən çox erməni silahlı qüvvələri qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisində yerləşməkdə davam edir. Yüzdən çox tank və digər zirehli texnika, yaylım atəşli raket sistemləri də daxil olmaqla, iki yüzdən çox ağır artilleriya qurğusu, onlarla müxtəlif radioelektron mübarizə sistemi və iki yüzdən çox minaatan sistem hal-hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yerləşdirilib.

Ermənistan öhdəliklərinə zidd olaraq bu qüvvələri texniki, hərbi, logistik və maliyyə dəstəyi ilə təmin edir. Azərbaycan ərazisindəki silahlı birləşmələr birbaşa Ermənistanın dövlət büdcəsindən maliyyələşdirilir. Ermənistan 4-cü bəndində erməni silahlı qüvvələrinin Rusiya Federasiyasının sülhməramlı kontingentinin yerləşdirilməsinə paralel olaraq çıxarılması tələbinin açıq şəkildə ifadə olunduğu 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatını nümayişkaranə şəkildə pozur.

Azərbaycanın suveren ərazilərində qeyri-qanuni yerləşdirilmiş radioelektron mübarizə sistemlərindən istifadə xüsusi narahatlıq doğurur. 13 iyul, 24 iyul, 27 iyul, 21 avqust, 1 sentyabr tarixləri də daxil olmaqla son bir neçə ay ərzində, Azərbaycan Hava Yollarının mülki təyyarələrilə yanaşı, xarici dövlətlərin mülki təyyarələri də radioelektron müdaxiləyə məruz qalıb. Bu müdaxilələr insanların və hava hərəkətinin təhlükəsizliyi üçün ciddi təhdiddir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT), habelə Rusiya Federasiyasının sülhməramlı kontingenti bu kimi təhdid xarakterli fəaliyyətlərlə bağlı məlumatlandırılıb.

Son günlər həm Azərbaycan və Ermənistan arasında delimitasiya olunmamış sərhəd boyunca, həm də Qarabağ bölgəsində hərbi mühəndislik işlərinin və digər hərbi quruculuq fəaliyyətinin artması ilə müşayiət olunan hərbi təxribatların intensivləşməsi müşahidə olunur. Ermənistan açıq şəkildə növbəti hərbi hücum etmək üçün yeni səngərlər qazır, istehkamlar qurur, şəxsi heyət və texnika toplayır.

Ermənistan Azərbaycan ərazisində yeni minalar basdırmağa davam edir. Qeyd etmək lazımdır ki, ötən ilin avqustundan etibarən 2021-ci ildə Ermənistanda istehsal olunmuş 2728 mina aşkarlanıb və zərərsizləşdirilib. Bunların 1119-u Azərbaycan və Ermənistan arasında sərhəd ərazisində, Kəlbəcər və Laçın rayonlarında, 1609-u isə Qarabağ iqtisadi rayonunun ərazisində aşkarlanıb. Rusiya sülhməramlı kontingenti, habelə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərləri, o cümlədən xarici ölkələrin hərbi nümayəndələri bu minaların nümayiş olunduğu əraziyə səfər ediblər.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının səbəblərindən biri sözügedən qeyri-qanuni hərbi fəaliyyətin və qaçaqmalçılığın qarşısının alınması olub.

Azərbaycan ərazilərində qanunsuz qondarma rejimin yaradılmasının ildönümünə dair Ermənistanın baş naziri tərəfindən verilmiş "təbrik məktubu" Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tanıması ilə bağlı əvvəl səsləndirilmiş bəyanatların qeyri-səmimi olduğunu bir daha sübut edib.

Əksinə, Ermənistan rəhbərliyinin son bəyanatları və fəaliyyəti əvvəlki bəyanatları əsaslı şəkildə heçə endirib.

Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün sözdə tanınmasına baxmayaraq, onun müxtəlif beynəlxalq təşkilatlar yanında akkreditə olunmuş diplomatik missiyaları qeyri-qanuni qondarma rejim adından sənədlər yaymaqda davam edir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü istənilən ölkəninki qədər vacibdir. Azərbaycan dünyanın istənilən ölkəsi kimi beynəlxalq hüquqda əks edilmiş bütün vasitələrlə öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir.

Bu vacib məqamda Ermənistanı öz təhlükəli yolundan döndərməyə məcbur etmək həmişəkindən daha mühümdür və daha çox tələb olunur.

Ermənistan və onun Azərbaycanın suveren ərazilərində bütün mümkün ideoloji, siyasi, hərbi, maliyyə və digər vasitələrlə qoruyub saxladığı xunta vaxt qazanmağa yönəlmiş köhnə taktikaya arxalanmağın heç bir nəticə verməyəcəyinə dair beynəlxalq ictimaiyyətin vahid və aydın mövqeyi ilə üzləşməlidir.

Azərbaycan həll yolunu tapmaqda maraqlıdır və bunu öz vasitəçiliyini təklif edən bütün tərəflərlə səmimi fəaliyyəti ilə sübut edib. İstisna olmadan bütün hallarda Ermənistan tərəfi müxtəlif bəhanələrlə əldə edilmiş razılıqları pozub. Bunun yeganə səbəbi isə vəziyyəti uzatmaq, gərginliyi artırmaq və sonda normallaşma prosesini pozmaq olub.

Azərbaycanın sülh prosesinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən atdığımız ardıcıl addımlarla sübut edilib.

Azərbaycan Ermənistandan hərbi quruculuq fəaliyyətini dayandırmasını, revanşist planlardan əl çəkməsini, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmağı dayandırmasını və Azərbaycanın Qarabağ bölgəsində separatizm və terrorizmi dəstəkləməkdən əl çəkməsini tələb edir. Bununla yanaşı, Azərbaycan Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin dərhal çıxarılmasını, Ermənistana tabe qondarma rejimin hərbi və qondarma "hökumət" strukturlarının aradan qaldırılmasını və Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsini tələb edir. Bu halda, qondarma rejimin "nümayəndə"lərinə amnistiya tətbiq edilə bilər.

# Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndələri Heydər Əliyev Fondunda olublar





Bakıya səfər edən Şanxay Əməkdaşlıq Təşkilatının Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin nümayəndə heyəti Heydər Əliyev Fondunda olub.

AZƏRTAC xəbər verir ki, Komitənin sədr müavini xanım Cuy Li qurumlar arasında mövcud əməkdaşlıq və həyata keçirilən layihələrdən danışıb.

Görüşdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə Şanxay Əməkdaşlıq Təşkilatı, eləcə də Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əlaqələrin iki ölkə arasında münasibətlərin genişlənməsinə töhfə verdiyi bildirilib.

Xanım Cuy Li gələcəkdə Heydər Əliyev Fondu ilə gənclər, səhiyyə və mədəniyyət sahələrində ardıcıl layihələrin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

Qonaq Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, eləcə də Heydər Əliyev Mərkəzi ilə tanışlığın onlarda böyük təəssürat yaratdığını bildirib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun Çin Xalq Respublikası ilə əlaqələrə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası ilə əməkdaşlığa verdiyi önəmi diqqətə çatdırıb. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin gənclər sahəsində birgə layihələrdə iştirakı, eləcə də Heydər Əliyev Mərkəzində Çin mədəniyyəti və incəsənəti sahəsində sərgilərin təşkilinin mümkünlüyü nəzərdən keçirilib.

# Milli Məclis "Energetika haqqında" qanun layihəsini müzakirə edəcək

Sentyabrın 18-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Komitə sədri Sadiq Qurbanov iclasın gündəliyinə daxil edilən məsələlər barədə tədbir iştirakçılarına məlumat verib.

Əvvəlcə Sadiq Qurbanov 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin gördüyü işlərə dair hesabatı diqqətə çatdırıb. O deyib ki, bu müddətdə komitənin 12 iclası keçirilib, 40 məsələyə baxılıb. Komitədə 9 qanun layihəsinin üç oxunuşda müzakirəsi keçirilərək Milli Məclisdə qəbul edilib. Habelə qeyd olunub ki, digər 9 qanun layihəsi isə bir oxunuşda müzakirə olunaraq qəbul edilib.

Sadiq Qurbanov "Heydər Əliyev İli" çərçivəsində görülən işlər, mövzu ilə bağlı komitə üzvlərinin iştirak etdikləri tədbirlər barədə məlumat verib. O həmçinin bir sıra aktual məsələlərlə əlaqədar ölkədə və ölkədən kənarda keçirilən müzakirələrdə deputatların fəal iştirak etdiyini söyləyib.

Sonra komitə sədri Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planını təqdim edib. O, sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin, bəzi qanunlarda ediləcək dəyişikliklərin müzakirə olunacağını söyləyib. Bildirib ki, sessiya ərzində Hacıqabul gölünün mövcud vəziyyəti və bərpası istiqamətində işlərin görülməsi, qlobal iqlim dəyişikliyinin Azərbaycana təsiri ilə bağlı, içməli su problemi, suyun keyfiyyəti və onun təmizlənməsi texnologiyaları barədə, Qarabağ iqtisadi rayonu ərazisinin ekoloji vəziyyətinə dair, işğal zamanı Ermənistanın qanunsuz silahlı birləşmələri tərəfindən minalanmış Azərbaycan ərazilərində ekologiyaya vurulmuş zərərlə bağlı və bir sıra digər mövzularda müzakirələrin keçirilməsi nəzərdə tutulub.

İclasda 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə komitənin gördüyü işlərə dair hesabatı qənaətbəxş hesab olunub, 2023-cü ilin payız sessiyası üçün iş planı təsdiq edilib.

Sonra gündəlikdəki növbəti məsələ - "Energetika haqqında" qanun layihəsi birinci oxunuşda təqdim olunub. Sənədi diqqətə çatdıran Energetika Nazirliyinin Hüquq şöbəsinin müdiri İbrahim Ağayev bildirib ki, 6 fəsil, 28 maddədən ibarət qanun layihəsi "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 29 may tarixli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 iyun tarixli Sərəncamının 1-ci hissəsinin icrası məqsədilə hazırlanıb.

Qeyd olunub ki, layihənin məqsədi energetika sahəsində fəaliyyətin hüquqi, iqtisadi və idarəetmə əsaslarının, habelə enerji təhlükəsizliyinin təmin edilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması, davamlı iqtisadi inkişafın dəstəklənməsi, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsi mexanizmlərinin müəyyən edilməsindən ibarətdir. Sənəd hazırlanarkən respublikamızda bazar iqtisadiyyatının mövcud vəziyyəti və perspektiv inkişaf istiqamətləri, beynəlxalq təcrübə, o cümlədən Avropa ölkələrinin qanunvericiliyi araşdırılıb və nəzərə alınıb.

Layihə ilə bağlı çıxış edən komitə üzvləri İltizam Yusifov, Nəsib Məhəməliyev sənədi dəstəkləyərək, bəzi fikir və qeydlərini söyləyiblər. İclasda iştirak edən energetika nazirinin müavini Samir Vəliyev, Energetika Nazirliyinin şöbə müdiri İbrahim Ağayev çıxışlarda səsləndirilən sualları ətraflı cavablandırıblar, bəzi məqamlara aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Energetika haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

Sonra iclasda bir sıra cari məsələlərə baxılıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, komitənin üzvləri İltizam Yusifov, Nəsib Məhəməliyev, energetika nazirinin müavini Samir Vəliyev, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, Su Ehtiyatları Dövlət Agentliyi rəisinin müavini Rafiq Aslanov ölkəmizdə ekoloji vəziyyətə dair fikirlərini açıqlayıblar, bu sahədə olan problemlərdən, onların həllinə yönəlmiş tədbirlərdən söhbət açıblar. Çıxışlarda qlobal iqlim dəyişikliklərinin törətdiyi fəsadlardan danışılıb, bəzi statistik rəqəmlər diqqətə çatdırılıb, su resurslarının düzgün idarə olunmasının aktuallığından bəhs edilib.

Tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su ehtiyatlarının idarə edilməsi şöbəsinin Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sektorunun müdiri Əkbər Əsgərov "Hacıqabul gölünün reabilitasiyası" mövzusunda təqdimatla çıxış edib. O, gölün ekoloji problemləri, keçirilən monitorinqlər, aparılan ölçmələrin nəticələri, gölün bərpası istiqamətində nəzərdə tutulan işlər barədə məlumat verib.

Sonra komitə üzvü Fatma Yıldırım sahibsiz itlərlə bağlı məsələyə toxunub. O bu sahədə mövcud vəziyyət, yaranan problemlərin aradan qaldırılması, sahibsiz heyvanlara nəzarət mexanizmlərinin yaradılması, bununla bağlı qanunvericilik sisteminin təkmilləşdirilməsi məsələlərindən danışıb.

Komitənin sədri Sadiq Qurbanov bu məsələnin aktuallığından danışaraq, onun daim komitənin diqqət mərkəzində olduğunu bildirib, mövzu ilə əlaqədar gələcəkdə də aidiyyəti qurumlarla müzakirələrin aparılacağını söyləyib.

Komitə üzvləri İltizam Yusifov, Nəsib Məhəməliyev də bu məsələ ilə bağlı bəzi qeydlərini səsləndiriblər.

***"Azərbaycan"***

# İlham Əliyev dedi və etdi

## Ağdamdan Xankəndiyə...



"Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz... Biz hər şeyi düzgün etmişik".

Qarabağın zəfər zirvəsi Şuşada keçirilən I Şuşa Qlobal Media Forumunun açılışında qalib lider İlham Əliyevin dünyanın nəzərinə yetirdiyi kimi, Azərbaycan öz milli maraqlarını beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ardıcıllıqla və qətiyyətlə təmin edir.

Sentyabrın 18-dən etibarən Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin həyata keçirilməsi isə xalqımız adına növbəti qalibiyyətimiz oldu.

Xankəndi yolunun açılması həm də hər zaman humanizmi əldə əsas tutan ölkəmizin Pənahəli xanın kəndinə barışığa aparan humanitar yolla qədəm qoymasının rəmzi ifadəsi oldu.

### Tarixi qələbələr

2020-ci ildə hərb meydanından gələn zəfər xəbərləri ilə qürurlanan xalqımız ondan sonrakı dövrdə də milli mənafeyimizin təmini ilə bağlı siyasi, diplomatik, beynəlxalq hüquq, informasiya, ümumiyyətlə, bütün sahələr üzrə dövlətimizin ard-arda qazandığı qələbələrlə fəxr edir.

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə apardığı müdrik siyasətin nəticəsidir ki, Azərbaycan işğala məruz qalan ölkədən zəfər ölkəsinə çevrilib. Qarabağ və Şərqi Zəngəzura yeni həyat verilib, Böyük qayıdış köçünə başlanılıb.

2023-cü il aprelin 23-də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi qurması ilə ölkəmiz bütün sərhədləri boyu üçrəngli bayrağımızı dalğalandıraraq suveren ərazilərimizin bütövlüyünü təmin edib.

Bu il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etməklə Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində nəzarət-buraxılış məntəqəsini qurmaqla bağlı beynəlxalq qaydalar əsasında suveren hüquqa malik olduğunu rəsmi tanıdığını təsdiqlədi.

Milli maraqlarımızın təmini istiqamətində əldə edilən daha bir uğur isə ötən gün Xankəndi yolunun açılması oldu.

Sentyabrın 17-də Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) Azərbaycan tərəfinə müraciət edərək, qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə məlumat verib. Beləliklə, Azərbaycan tərəfinin təklif etdiyi kimi, ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadə təşkil olunub.

### Erməni tərəfi mane olmasaydı, yol daha tez açılacaqdı

Əslində, Ağdam-Xankəndi yolu sözügedən tarixdən daha əvvəl də açıla bilərdi. Çünki Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə olunması uzun müddətdir Azərbaycan tərəfindən təklif edilirdi.

Hətta cari il iyulun 15-də baş tutan Brüssel görüşündən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bildirmişdi ki, Bakının həm erməni icması, həm də Rusiya hərbi kontingentinin humanitar ehtiyaclarının qarşılanması üçün öz ərazisi vasitəsilə, alternativ təchizat yolu kimi Xankəndi-Ağdam yolunu təklif etməsi də görüşdə müzakirə edilib və Aİ tərəfindən təqdirlə qarşılanıb.

Lakin erməni tərəfi Azərbaycanın alternativ yol təklifinə qarşı çıxır, bu yolun açılmasına müxtəlif riyakar yollarla əngəl olaraq Xankəndidə süni "humanitar fəlakət" yaradır, eyni zamanda da Laçın yolunun, guya, blokadada olması uydurmasını dünyaya yayır, beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq istəyirdi.

Sentyabrın 8-də Azərbaycan Xarici İşlər Nazirliyində (XİN) nazir Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun iştirakı ilə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün keçirilən brifinq zamanı da bildirilmişdi ki, Rusiya Federasiyası, ABŞ və Avropa İttifaqı ilə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından sinxron istifadənin həyata keçirilməsinin, habelə mərkəzi hökumətin xüsusi nümayəndəsinin yerli sakinlərlə görüşünün təşkili üçün müvafiq iş aparılıb: "Nəhayət, 4 avqust tarixində hər iki məsələ ilə bağlı razılıq əldə olundu. Bununla da sözügedən yolların ardıcıl şəkildə açılması və Yevlaxda görüşün təşkili məsələləri razılaşdırıldı. İştirak edən bütün maraqlı tərəflər, o cümlədən BQXK və sülhməramlı kontingent razılaşmaların həyata keçirilməsinin təşkilinə hazır idilər. Lakin son anda Ermənistan tərəfi siyasi motivli qanunsuz bəhanələr irəli sürərək hər iki razılaşmadan geri çəkildi".

### Ağdam-Xankəndi yolu açıldı

Ermənistanın və separatçı rejimin əngəllərinə rəğmən, sentyabrın 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qırmızı Xaç Cəmiyyətinin yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndiyə keçidi təmin olundu. Bununla da həm sözügedən yolun açılması istiqamətində mühüm addım atıldı, həm də Xankəndidə, guya, aclıq yaşanması ilə bağlı dünyada ayaq açıb yeriməyə çalışan erməni yalanları ifşa edildi.

Ağdam-Xankəndi və Laçın yollarının eyni zamanda açılması məsələsi ilə bağlı sentyabrın 12-də yerli medianın suallarına cavabında XİN-in mətbuat katibi Ayxan Hacızadə məlumat verərək bildirdi ki, Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksəksəviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan tərəf Ermənistanın Qarabağ bölgəsində yaratdığı qondarma rejimdir: "Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır".

Sentyabrın 18-də Azərbaycanın şərtlərinə uyğun olaraq Ağdam-Xankəndi yolu ilə paralel Xankəndi-Laçın yolu da humanitar yüklərin daşınması üçün istifadəyə verildi.

### Şərtləri Azərbaycan irəli sürür

Ötən müddətdə erməni tərəfi "humanitar təzyiq"lə yalnız Laçın yolunun işləməsinə nail olmağa, Ağdam-Xankəndi yolunun isə hər zaman bağlı qalmasına çalışırdı. Amma Azərbaycan öz şərtini söyləmiş və Laçın yolunun yalnız Ağdam-Xankəndi yolu ilə paralel şəkildə işləyəcəyini qəti şəkildə bildirmişdi.

Bakının bu qətiyyətli mövqeyi, irəli sürdüyü şərtlərə əməl olunması ilə bağlı apardığı prinsipial mübarizə Ağdamdan Xankəndiyə uzanan yolumuzu da açdı...

Qalib lider İlham Əliyevin xalqımız, dövlətimiz, ümumilikdə Azərbaycan adına atdığı məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli addımları Ağdam-Xankəndi yolunun açılmasının timsalında daha bir milli marağımızı qətiyyətlə təmin etdi.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Bakıda itkin düşmüş şəxslərin taleyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

*Əvvəli 1-ci səh.*

Əldə olunmuş sübutlar göstərir ki, itkin düşmüş hərbçilərimizin xeyli hissəsi döyüş meydanlarında deyil, əsir düşərgələrində dəhşətli işgəncələr nəticəsində qətlə yetiriliblər. Vətən müharibəsində isə 6 nəfər hərbi qulluqçu itkin düşüb.

Dövlət Komissiyasının sədri itkin düşmüş şəxslərə aid olması ehtimal edilən məzar yerlərində 2021-ci ilin fevralından başlayaraq aşkarlanan meyit qalıqlarının eyniləşdirilməsinin intensiv şəkildə həyata keçirildiyini deyib. Əli Nağıyev Prezident İlham Əliyevin tapşırığı ilə ayrılmış vəsait hesabına Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsinin tərkibində yaradılmış və ən müasir avadanlıqla təchiz edilmiş genetik laboratoriyada meyit qalıqlarının eyniləşdirilməsi imkanlarından söhbət açaraq, komissiyanın fəaliyyətinə və itkin vətəndaşlarımızın taleyinin müəyyən edilməsi işinə göstərdiyi dəstəyə və diqqətə görə dövlətimizin başçısına dərin minnətdarlığını ifadə edib. Qeyd edib ki, artıq şəxsiyyəti müəyyənləşdirilmiş 25 nəfərdən 13-ü həmin genetik laboratoriyada eyniləşdirilib.

Qeyd olunub ki, son günlər ərzində eyniləşdirilməsi aparılan və ictimaiyyətə açıqlanan 15 nəfərdən başqa, Dövlət Komissiyasının səyləri və görülən təxirəsalınmaz tədbirlərlə konfrans ərəfəsində 1-i mülki şəxs və 9-u hərbçi olmaqla 10 vətəndaşımızın meyit qalıqları eyniləşdirilib. Xidmət rəisi Əli Nağıyev onların sırasından Azərbaycanın Milli Qəhrəmanı, vaxtilə təhlükəsizlik orqanlarının əməkdaşı olmuş, Birinci Qarabağ müharibəsində böyük igidlik və şücaət göstərmiş, 1992-ci il yanvarın 26-da rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşmüş Riad Əhmədovun müəyyən edilməsinin ciddi ictimai hadisə olduğunu xüsusi vurğulayıb.

Dövlət Komissiyasının sədri Ermənistanın qeyri-konstruktiv və humanizmə zidd addımlarından əl çəkməklə, dəqiq mina xəritələrini və məzar yerləri barədə məlumatları təqdim edəcəyi təqdirdə taleyi qeyri-müəyyən olan itkin düşmüş vətəndaşlarımızın axtarışı prosesinin daha sürətlə aparıla biləcəyindən də danışıb. Əli Nağıyev rəsmi Yerevanı bu məsələdə əməkdaşlığa səy göstərməyə çağırıb və bildirib ki, Ermənistanın bu humanitar missiyanın həyata keçirilməsində edəcəyi yardım hər iki tərəfdən itkin düşmüş şəxslərin tez bir zamanda müəyyənləşdirilməsinə və xeyli müddətdir davam edən humanitar böhranın aradan qaldırılmasına səbəb olardı.

Bəzi erməni ideoloqların azərbaycanlılarla ermənilərin birgə yaşamasının qeyri-mümkünlüyünə dair fikirlərinə də münasibət bildirən komissiya sədri monoetnik Ermənistandan fərqli olaraq çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda bütün xalqların nümayəndələri ilə yanaşı, ermənilərin də daim sülh və rifah içində yaşadıqlarını nəzərə çatdırıb, ölkəmizin erməni əhalisini azərbaycanlılarla birgəyaşayış mühitini formalaşdırmağa dəvət edib.

Əli Nağıyev beynəlxalq konfransın itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsinə mühüm töhfə verəcəyinə ümidvar olduğunu söyləyib, tədbirdə iştirak edən müvafiq sahə üzrə ixtisaslaşmış alim və mütəxəssislərə bilik və təcrübələrini bölüşdükləri üçün minnətdarlığını çatdırıb. O, gələcəkdə görüləcək işlər sayəsində itkin düşmüş digər vətəndaşlarımızın da taleyinə tezliklə aydınlıq gələcəyinə, bu işdə Dövlət Komissiyasının beynəlxalq humanitar təşkilatlarla birgə fəaliyyətinin daha nəticəyönümlü olacağına inandığını, itkinlərin tapılması məqsədilə qarşıya qoyulmuş vəzifələrin bundan sonra da bütün mümkün imkanlar səfərbər olunmaqla lazımi səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Sonra itkin düşmüş şəxslərin probleminə dair pantomima səhnəcik təqdim olunub.

Daha sonra konfrans işini sessiyalarla davam etdirib.

"İtkin düşmüş şəxslərlə bağlı mövcud beynəlxalq çərçivə və silahlı münaqişə tərəfləri olan dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi vasitələri" mövzusunda birinci sessiyada Meksikadan olan müstəqil ekspert Kristofer Ballinas Valdes moderatorluq edib.






İclasda əsas məruzəçi qismində çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, ölkəmiz 30 ildir itkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi problemindən əziyyət çəkir. "Təəssüf ki, Ermənistan tərəfi bu məsələdə əməkdaşlıqdan yayınır", - deyən nazir müavini insanların qeyri-qanuni şəkildə girov götürülməsini insan hüquqlarına zidd addım adlandırıb. Mina problemi məsələsinə toxunan F.Rzayev bununla bağlı ölkələr arasında məlumat mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

Nazir müavini deyib ki, dünya miqyasında itkin düşənlərin sayında kəskin artım olub. "Son beş ildə bu rəqəm təxminən iki dəfə artaraq 200 min nəfərə çatıb. Bütün bunlar dövlətlərin və müvafiq beynəlxalq təşkilatların daha çox səy göstərməsini tələb edir. Qarşılıqlı yardım məlumat mübadiləsi, qurbanlara yardım, itkin düşmüş şəxslərin kütləvi surətdə müəyyənləşdirilməsi ilə bağlı işlərin səmərəli həlli üçün əməkdaşlığı vacib edir", - deyə F.Rzayev qeyd edib.

İclasda həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsinin Mərkəzi Axtarış Agentliyinin rəhbəri xanım Florence Anselmo, İtkin düşmüş şəxslər üzrə beynəlxalq komissiyanın Siyasət və əməkdaşlıq direktoru Andreas Kleiser, Beynəlxalq insan haqları hüququ, BMT sistemi üzrə ekspert, Misir Britaniya Universitetində qonaq professor Afərin Şahidzadə və digər şəxslər çıxış edərək itkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər. Eləcə də Serbiyanın sabiq Prezidenti Boris Tadiçin videomüraciəti dinlənilib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin məhkəmə koordinatoru xanım Elif Günçenin moderatorluq etdiyi "İtkin düşmüş şəxslərin problemi ilə bağlı irəliləyişlər və problemlər, o cümlədən məhkəmə ekspertizasından və digər inkişaf etməkdə olan texnologiyalardan istifadə etməklə itkin düşmüş şəxslərin qalıqlarının yerinin effektiv müəyyən edilməsi" mövzusunda ikinci sessiyada çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror Xanlar Vəliyev bildirib ki, işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlardan ümumilikdə ən azı 508 şəxsə aid meyit qalıqları tapılaraq götürülüb. O cümlədən Şuşa rayonunun Daşaltı kəndi ərazisində 28 şəxs, Xocalı rayonunun Fərrux kəndi ərazisində 12, Xocavənd rayonunun Edilli kəndində 27, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində 9, Şuşa şəhərində keçmiş həbsxananın ərazisində 31, ümumilikdə isə 107 şəxsə aid meyit qalıqları aşkarlanıb. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri zamanı bu günədək Ağdam, Şuşa, Göygöl, Tərtər, Füzuli, Zəngilan, Cəbrayıl, Kəlbəcər, Laçın və Xocavənd rayonları ərazisində aşkar edilmiş ən azı 98 şəxsə aid meyit qalıqları üzrə hərtərəfli araşdırmalar aparılır. Bununla yanaşı, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın şəhər və rayonlarının ərazisində yerləşən qəbiristanlıqlarda tanınmadan dəfn edilmiş naməlum şəhid məzarlarında aparılmış ekshumasiya nəticəsində 183 şəxsə aid meyit qalıqları aşkar edilib. Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 3890 nəfərdən yalnız 120 şəxsin meyit qalıqları Ermənistan tərəfindən təhvil verilib. Azərbaycan Respublikasının əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsinin iştirakı ilə itkin düşmüş şəxslərin ailə üzvlərindən bioloji nümunələr götürülmüş və həmin nümunələrdən çıxarılan genetik profillər aşkar edilmiş insan meyit qalıqlarından çıxarılmış genetik profillərlə eyniləşdirmə aparılması, habelə təqdim edilən sümüklərin insana aid olub-olmaması, neçə şəxsə mənsubluğu, ölümün səbəbi və s. sualların aydınlaşdırılması üçün Hərbi Prokurorluq tərəfindən 349 məhkəmə-tibbi kriminalistik ekspertizası, 305 məhkəmə molekulyar genetik ekspertizası təyin olunub.

Həmçinin bildirilib ki, dəfələrlə müraciət olunmasına baxmayaraq, Ermənistan kütləvi məzarlıqların yeri barədə məlumat verməkdən qəsdən yayınır. Çox təəssüf ki, Ermənistan tərəfi sözdə bir şey deyir, əməldə isə başqa hərəkət edir.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin həddindən artıq minalarla və partlamamış sursatlarla çirkləndirilməsi səbəbindən həmin ərazilərdə insan cəsəd qalıqlarının axtarışı işinin intensiv aparılması olduqca böyük çətinliklər yaradır.

İclasda həmçinin Bosniya və Herseqovina Nazirlər Şurasının sabiq sədri Zlatko Lagumdziyanın və İsrailin sabiq Baş naziri, xarici işlər və ədliyyə naziri xanım Tzipi Livninin və müstəqil məhkəmə eksperti Luis Fondebriderin videomüraciətləri dinlənilib. Bundan başqa, Serbiyanın itkin düşmüş şəxslərlə iş üzrə komissiyasının İşçi qrupunun rəhbərinin müavini, məhkəmə eksperti xanım Suzana Mateyiç, məhkəmə ekspertizası koordinatoru xanım Sandra Sostariç və digər şəxslər çıxış ediblər.

Konfransda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluq etdiyi "Təsirə məruz qalan ölkələrin nümayəndələrinin iştirakı ilə təcrübə mübadiləsi" mövzusunda üçüncü sessiyada Bolqarıstanın və Xorvatiyanın sabiq prezidentləri Rosen Plevneliyev və İvo Yosipoviçin videomüraciətləri dinlənilib.

İclasda çıxış edən Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun rəhbəri İsmayıl Axundov bildirib ki, təxirəsalınmaz tədbirlər nəticəsində mütəxəssislərimiz tərəfindən itkin düşmüş 25 nəfərin identifikasiyası mümkün olub. Onlardan 15 nəfəri barədə cari ilin avqust ayında ictimaiyyətə məlumat verilmişdi. Daha 10 nəfərinin şəxsiyyəti müəyyənləşdirilib. Onlardan 9-u hərbçi, 1-i isə mülki şəxsdir. Həmin şəxslər Tahirov Seyfulla Veytulla oğlu, Atamoğlanov Əbülfət Sabir oğlu, Hacıyev Təhsin Fikran oğlu, Əsədov Vüqar Habil oğlu, Babaşov Əhməd Tahir oğlu, Xələfov Cahangir Məmi oğlu, Nağıyev Cahid Şəfa oğlu, Məmmədov Elmar İnqilab oğlu, Qasımov Veysəl Qasım oğlu və Əhmədov Riad Fikrət oğludur. Bununla yanaşı, qanunvericiliyin təkmilləşdirilməsi və yeni imkanların yaradılması sahəsində paralel olaraq işlər davam etdirilib.

Həmçinin vurğulanıb ki, Ermənistanın hərbi təxribatlarına qarşı 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi ilə həyata keçirilmiş əks-hücum əməliyyatı nəticəsində ölkəmizin ərazilərinin işğaldan azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasına böyük ümidlər yaratdı. Hazırda həmin ərazilərin mina və partlamamış sursatlarla çirkləndirilməsi məzar yerlərində qazıntı işlərini aparmağa imkan vermir, itkin ailələrinin iztirablarının uzanmasını şərtləndirir.

Birinci Qarabağ müharibəsində döyüş bölgəsindən çıxarılaraq Azərbaycanın bir neçə yaşayış məntəqəsindəki Şəhidlər xiyabanlarında və qəbiristanlıqlarda tanınmadan dəfn edilmiş 200-ə yaxın şəhid məzarı müəyyənləşdirilərək qeydiyyata alındığını qeyd edən Komissiyanın İşçi qrupunun rəhbəri bildirib: "Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş Azərbaycan vətəndaşlarının kütləvi və fərdi dəfn yerləri barədə məlumatlar sistemləşdirilib. Komissiyada olan məlumatların təhlili göstərir ki, azad edilmiş, o cümlədən hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyət zonasında olan ərazilərimizdə çoxsaylı məzar yerləri mövcuddur. Eyni zamanda, bu sahədə Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə yaxından əməkdaşlıq edilir. Əldə edilmiş razılığa uyğun olaraq ötən il qurum tərəfindən müəyyən məlumatlar Dövlət Komissiyasına təqdim edilib. Toplanmış məlumatlar əsasında məzar yerlərinə dair xüsusi xəritələr tərtib edilib. Plana uyğun olaraq həmin məzar yerlərində qazıntı və ekshumasiya işləri həyata keçirilir. Bununla yanaşı, Dövlət Komissiyasının İşçi qrupu məzar yerləri ilə bağlı məlumatların toplanması işini davam etdirir".

İclasda həmçinin Bosniya və Herseqovinanın İtkinlər İnstitutunun İdarə Heyətinin sədri Nikola Perişiç, Böyük Britaniyanın xarici işlər, birlik və inkişaf ofisinin humanitar müşaviri Fred Robarts və digər şəxslər mövzu ətrafında çıxış edərək fikirlərini bildiriblər.

"Hökumətlər və itkin düşmüş şəxslərin ailələri arasında əməkdaşlıq" mövzusunda sonuncu - dördüncü sessiyada Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi Şaban Şayev moderatorluq edib. İclasda Azərbaycandan, Bosniya və Herseqovinadan olan ailələrin üzvləri çıxış edib, İtkin düşmüş şəxslər ilə iş üzrə cavabdeh Peru hökuməti nümayəndəsinin və İtkin düşmüş şəxslər üzrə hökumətə məsləhətçi qismində çıxış edən Kolumbiya ailə assosiasiyası nümayəndəsinin videomüraciətləri dinlənilib.

Konfransın bağlanış mərasimində əvvəlcə yekun Bəyannamə qəbul edilib.

Tədbirə yekun vuran Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun rəhbəri İsmayıl Axundov gün ərzində məzmunlu, əhatəli, nəzəri və yüksək təcrübəyə əsaslanan məruzə və çıxışların dinlənildiyini qeyd edib. Bildirib ki, konfrans həm də əməkdaşlıq imkanlarının artırılması baxımından qarşıda yeni üfüqlər açır. Azərbaycanın ədalətsiz münaqişəyə cəlb olunması və işğal faktının 30 ildən artıq davam etməsi itkinlərimizə aid naməlum məzar yerlərinin müəyyən edilməsi, qazıntı, ekshumasiya və eyniləşdirmə işlərinin aparılması sahəsində yüksək iş təcrübəsi əldə etməyə mane olub. Buna görə də hələ öyrənməli çox mətləblər və yeniliklər var.

İtkin düşmüş şəxslər probleminin təkcə Azərbaycan üçün deyil, qlobal mahiyyət daşıyan aktual problem olduğunu vurğulayan İ.Axundov deyib: "Hesab edirik ki, BMT bu sahəyə daha çox diqqət ayırmalı və qurumun itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi təyin edilməlidir. Biz dünyada baş verən bütün silahlı münaqişələrin tezliklə başa çatmasını, sülhün və əmin-amanlığın bərqərar olmasını, milli kimliyindən asılı olmayaraq, heç bir insanın itkin düşməməsini arzu edirik".



# Heydər Əliyev İli 2023



# Silahdaşlarının xatirələrində yaşayan Heydər Əliyev

**2023-cü il ölkəmiz üçün Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunması ilə əlamətdardır. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunmuş, dövlət başçısının 28 noyabr 2022-ci il tarixli sərəncamı ilə tədbirlər planı təsdiq edilmişdir.**

Ümummilli Liderin 100 illiyi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən də Ulu Öndərin həyat və fəaliyyətinin cəmiyyətdə geniş təbliğ edilməsi, xüsusən də dahi şəxsiyyətin mənalı ömrünün təhlükəsizlik orqanlarında keçən hissəsi ilə ictimaiyyətin daha yaxından tanış olması üçün müvafiq layihələr həyata keçirilmişdir. Belə ki, ötən aylar ərzində DTX-nin təşkilatçılığı ilə xidmətin Mərkəzi Aparatında, Mədəniyyət Mərkəzində, eləcə də respublikamızın bölgələrində - Gəncə, Şəki, Göyçay, Lənkəran və Naxçıvan şəhərlərində Heydər Əliyevin xatirəsinə həsr olunmuş bir sıra tədbirlər, habelə DTX-nin Heydər Əliyev adına Akademiyası tərəfindən ictimaiyyət nümayəndələrinin, ali təhsil müəssisələrinin rəhbərlərinin və professor-müəllim heyətlərinin iştirakı ilə "Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri" adlı elmi-praktiki konfrans keçirilmişdir. Bununla yanaşı, DTX-nin Azərbaycan Televiziyası ilə birgə layihəsi kimi Ulu Öndərin xüsusi xidmət orqanlarındakı fəaliyyətindən bəhs edən "Naturalist əməliyyatı", "Port-Pəhləvi əməliyyatı", "Xankəndi-1967", "Generalın planı" adlı silsilə sənədli filmlər hazırlanaraq nümayiş olunmuş, "Ulu Öndər silahdaşlarının xatirələrində", həmçinin DTX-nin yaxından dəstəyi ilə ərsəyə gətirilmiş, Xalq yazıçısı Elmira Axundovanın "На страже государства" adlı kitablarının təqdimatları keçirilmişdir.

Son illərdə Ümummilli Lider Heydər Əliyevin şərəfli ömür yolundan, dövləti və milləti naminə xidmətlərindən bəhs edən saysız-hesabsız kitablar nəşr olunmuş, məqalələr dərc edilmişdir. Heç şübhəsiz ki, Heydər Əliyev kimi dühanın həyatını, gördüyü işləri vəsf etmək üçün hələ bundan sonra da neçə-neçə kitab və məqalələr işıq üzü görəcəkdir. Lakin bizim bu yolda əsas məqsədimiz tamamilə yeni üslubda və tərtibatda fərqli bir nəşr hazırlamaq, Ulu Öndərin təhlükəsizlik orqanlarındakı 25 illik fəaliyyətini daha geniş tərənnüm etmək idi.

Heç də təsadüfi deyil ki, bu gün təhlükəsizlik orqanlarında xidmət edən bütöv bir nəsil özünü Heydər Əliyev məktəbinin davamçısı, DTX-nin şəxsi heyəti isə Ulu Öndər Heydər Əliyevi özünün fəxri rəhbəri hesab edir.

Beləliklə, səylərimizi odövrkü vəziyyəti vaxtilə təhlükəsizlik orqanlarında uzun müddət Heydər Əliyevlə birlikdə çalışmış, onunla mütəmadi birbaşa təmasda olmuş veteran əməkdaşların dili ilə canlandırmaq ideyası ətrafında birləşdirməyə qərar verdik. Bu, eyni zamanda elə bir kitab olmalı idi ki, oxucu onu mütaliə etdikdə Ulu Öndərin xüsusi xidmət orqanlarında çalışarkən xalqının rifahı və Azərbaycanın təhlükəsizliyi yolunda etdikləri ilə bağlı yeni-yeni məqamları özü üçün kəşf etmiş olsun. Əslində, əbədiyaşar lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ulu Öndər silahdaşlarının xatirələrində" adlı kitabın hazırlanması ideyasının yaranmasında təkan rolunu məhz yuxarıda sadaladığımız məqsədlər oynamışdır.

Ümummilli Liderin xüsusi xidmət orqanlarındakı fəaliyyətindən bəhs edən "Heydər Əliyev - Azərbaycan təhlükəsizlik orqanlarının ilk azərbaycanlı generalı" adlı giriş hissəsi ilə başlanan kitabın ən önəmli, unikal cəhəti burada indiyə kimi heç bir yerdə dərc olunmayan, vaxtilə təhlükəsizlik orqanlarında Heydər Əliyevin rəhbərliyi altında çalışmış veteran əməkdaşların üzərində Ulu Öndərin imzası olan və onların şəxsi işlərində saxlanılan məxfi qrifli arxiv sənədlərinin, dahi rəhbərin bu təsisatda xidmət etdiyi vaxtlara aid fotoşəkillərin, o cümlədən Ümummilli Liderin Rusiya təhlükəsizlik orqanlarının arxivində saxlanılan şəxsi işindən olan sənədli materialların, həmçinin Özbəkistan və Qazaxıstan təhlükəsizlik orqanları veteranlarının xatirələrinin yer almasıdır.

Cari ilin 10 may tarixində DTX-də keçirilən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş təntənəli tədbirdə təqdimatı baş tutmuş nəşrin "Ön söz"ünün müəllifi olan DTX-nin rəisi general-polkovnik Əli Nağıyev kitabın ərsəyə gətirilməsinin əsas məqsədini aşağıdakı kimi açıqlamışdır: *"Ümummilli Liderin 100 illik yubileyinin qeyd olunduğu ərəfəyə təsadüf edən bu kitabın hazırlanmasında əsas məqsəd Heydər Əliyev ideyalarının geniş təbliği, insanlara, xüsusən də gənc nəslə onun mənalı həyat və nümunəvi xidmət yolu barədə vaxtilə rəhbərliyi altında çalışmış, dahi şəxsiyyətin diqqət və qayğısını öz üzərilərində hiss etmiş, məsləhət və tövsiyələrindən bəhrələnmiş təhlükəsizlik orqanlarının veteranlarının və onların övladlarının hafizələrinə ömürlük həkk olunmuş unudulmaz xatirələri oxucularla bölüşməkdir"*.

Kitabda 42 veteran əməkdaşın Heydər Əliyevlə bağlı bölüşdükləri xatirələri, müxtəlif zamanlarda dövri mətbuatda dərc edilmiş məqalə və müsahibələri əks olunmuşdur. Ulu Öndər haqqında silahdaşlarının söylədikləri fikirləri, onların Heydər Əliyevin rəhbərliyi altında xidmət edərkən yaşadıqlarını oxuduqca təhlükəsizlik orqanlarında peşəkarlıq məktəbinin yaradıcısı olan bu şəxsin dahiliyinin bir daha əyani şəkildə şahidi olursan. Xidmət rəisi Əli Nağıyev nəşr üçün qələmə aldığı *"Ön söz"də məhz sözügedən məqama diqqət çəkir: "Həqiqətən də, onunla uzun illər çiyin-çiyinə çalışmış, doğma Vətənə şərəfli xidmət yolunda qarşıya çıxan bütün çətinliklərə Ulu Öndərlə birgə sinə gərmiş şəxslərin fikirləri ilə tanış olduqda bir daha Azərbaycanın və xalqımızın nə dərəcədə əzəmətli, nə dərəcədə dahiyanə bir siyasət nəhənginə sahib olduğunu anlayırsan"*.

Heydər Əliyevin silahdaşları qürur hissi ilə paylaşdıqları xatirələrində Ulu Öndərlə ilk tanışlıqlarından, aralarında mövcud olan rəhbər-işçi münasibətlərindən, onun əməkdaşlara diqqət və qayğısından, iş prinsipindən, geniş əməliyyat təfəkküründən, hadisələri qabaqcadan görə bilmək qabiliyyətindən, analitik və təhlil bacarığından ətraflı söhbət açırlar. Qeyd edirlər ki, məhz belə keyfiyyətləri sayəsində Heydər Əliyev mürəkkəb əməliyyat kombinasiyalarını uğurla həyata keçirir, qarşısında duran çətin tapşırıqların öhdəsindən layiqincə gələ bilirdi. Heydər Əliyevin təhlükəsizlik orqanlarında sıravi əməkdaşdan qurumun rəhbərinə, leytenant rütbəsindən general-mayor rütbəsinə kimi yüksəlməsi də sadalanan cəhətlərin müqabilində mümkün olmuşdu.




Təhlükəsizlik orqanlarının veteranları Heydər Əliyevin mükəmməl yaddaşa malik olmasını, nizam-intizamı, dəqiqliyi hər şeydən üstün tutmasını, insanlarda dürüstlüyə böyük qiymət verməsini deyirlər. Onlar bildirirlər ki, Heydər Əliyev hər zaman verdiyi tapşırıqların vaxtında icra olunmasına xüsusi diqqət yetirir, nəzərdə tutulan tədbirin nəticəsinin mənfi və ya müsbət olmasından asılı olmayaraq, vəziyyətin ona olduğu kimi məruzə edilməsini tələb edir, qeyri-səmimiliyi qətiyyən sevmir, hətta yerinə yetirilməsini tapşırdığı işlərin icra müddətini belə dəqiq yadında saxlayır, əməkdaşları adbaad hafizəsinə həkk edə bilirdi.

Bundan əlavə, o da qeyd olunur ki, xidməti fəaliyyətdə sərt və tələbkar olması ilə yanaşı, Heydər Əliyev tabeçiliyində çalışan əməkdaşların ailə-məişət problemləri və onları narahat edən digər məsələlərlə də daima yaxından maraqlanır, həlli üçün hərtərəfli dəstək göstərir, şəxsi heyətdən qayğısını heç vaxt əsirgəmirdi. Onun səyləri ilə həmin vaxtlar bütün çətinliklərə baxmayaraq, əməkdaşlar qısa müddətdə Bakı şəhərində mənzillə təmin olunur, onların sanatoriya-kurort müalicəsi və digər qayğıları öz həllini tapırdı.

Kitabda "Ön söz" müəllifinin də Heydər Əliyevlə ilk görüşü barədə xatirələrinə yer verilmişdir. General-polkovnik Əli Nağıyev o anı belə xatırlayır: *"Mənim üçün tarixi və unudulmaz olan həmin an 1993-cü ilin aprel ayında əməliyyat tapşırığının icrası ilə əlaqədar Naxçıvana ezam olunduğum vaxta təsadüf edir. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri olan Heydər Əliyevlə görüşdə o, təhlükəsizlik orqanlarındakı fəaliyyətimlə yaxından maraqlanmış, gələcək xidmətimin daha səmərəli qurulması üçün dəyərli məsləhətlərini vermişdi. Ulu Öndərin verdiyi öyüd-nəsihətlər bu orqanlardakı sonrakı fəaliyyətimin əsasını təşkil etdi. 1985-ci ildə xidmətə qəbul olunmaqla, 1997-ci ildən etibarən Milli Təhlükəsizlik Nazirliyinin Mərkəzi Aparatında müxtəlif əməliyyat strukturlarında rəhbər vəzifələrdə çalışmış əməkdaş kimi Ulu Öndərin təhlükəsizliyimizin etibarlı təminatı naminə verdiyi mühüm tapşırıqların birbaşa icraçıları sırasında olduğuma görə qürur duyuram"*.

Ümumiyyətlə, kitabı vərəqləyərək Heydər Əliyev barədə bölüşülən xatirələri oxuduqca insanın xəyalında iti zəkalı, öz peşəsinə dərindən yiyələnən və ona bağlı, uzaqgörən, milli düşüncəli, xalqını sonsuza qədər sevən, milli dəyərlərə sadiq olan təhlükəsizlik zabiti canlanır.

Təhlükəsizlik orqanlarının veteranları dönə-dönə vurğulayırlar ki, Heydər Əliyevin ən böyük xidmətlərindən biri bu orqanları milliləşdirməsi idi. Həmin dönəmlərdə təhlükəsizlik təşkilatının tərkibini əsasən qeyri-millətlərdən olanlar təşkil edirdi və bu amili də Ulu Öndər qətiyyən qəbul etmirdi. Belə addım atmaq o zaman üçün böyük cəsarət və hünər tələb edirdi. 1950-ci illərin əvvəllərindən başlanan milliləşmə prosesi ilə qısa zaman ərzində təhlükəsizlik orqanlarında azərbaycanlıların sayı əsaslı şəkildə artdı. Əslində, bununla Ulu Öndər təhlükəsizlik orqanlarının gələcəyi üçün kadr potensialını da formalaşdırmış olurdu.

Milliləşmə prosesi Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə də geniş vüsət aldı, onun təşəbbüsü ilə xeyli sayda gənc kadrlar keçmiş SSRİ-nin xüsusi tədris müəssisələrinə oxumağa göndərildi. Kitabın "Ön söz"ündə bu məsələyə general-polkovnik Əli Nağıyev toxunaraq qeyd etmişdir: *"Təbii ki, Heydər Əliyevin Azərbaycan təhlükəsizlik orqanlarındakı fəaliyyətindən danışanda onun hələ keçən əsrin 50-ci illərindən etibarən apardığı milliləşmə prosesini xüsusilə qeyd etmək lazımdır. Belə məsələlərin o dövr üçün böyük cəsarət və qətiyyət tələb etməsinə baxmayaraq, məhz Ulu Öndərin titanik səyləri nəticəsində o vaxtlar tərkibi digər millətlərdən ibarət olan təhlükəsizlik orqanlarına milli kadrların cəlb olunması, onların dövrün qabaqcıl xüsusi təyinatlı ali tədris müəssisələrində təhsil almaq üçün göndərilməsi aktiv şəkil aldı"*.

Nəzərə çatdıraq ki, Heydər Əliyev xüsusi xidmət orqanlarının şəxsi heyətinin komplektləşdirilməsi məsələsinə daim həssaslıqla yanaşmış, ölkəmiz müstəqillik qazandıqdan sonra da sözügedən istiqamətdə mühüm işlər görmüşdür. 1998-ci ildə təhlükəsizlik orqanının akademiyasının yaradılması buna bariz misaldır. Ümummilli Liderin 100 illik yubileyinin qeyd olunduğu 2023-cü il dekabrın 1-də Ulu Öndərin adını daşıyan və vaxtilə birbaşa özünün təşəbbüsü ilə əsası qoyulmuş bu xüsusi təyinatlı ali təhsil müəssisəsinin yaradılmasının 25 illiyinin tamam olması təhlükəsizlik orqanlarının tarixinə növbəti əlamətdar hadisə kimi daxil olacaqdır.

Xüsusilə qeyd etmək istərdik ki, bu gün də Azərbaycan təhlükəsizlik orqanları məhz Ulu Öndərin miras qoyduğu vətənpərvərlik irsi və peşəkarlıq məktəbi əsasında fəaliyyət göstərir, bu orqanlarda xidmət vaxtilə Heydər Əliyevin müəyyən etdiyi meyarlar üzərində inkişaf etdirilir. General-polkovnik Əli Nağıyev qeyd olunanları "Ön söz"də xüsusi vurğulayır: *"Heydər Əliyevin şərəfli ömrünün 25 ilini həsr etdiyi Azərbaycan təhlükəsizlik orqanlarındakı fəaliyyəti, gələcək nəslə miras qoyduğu peşəkarlıq məktəbi xüsusi xidmət orqanlarının əməkdaşları üçün etalon olaraq qəbul edilir. Ulu Öndərin millətə və dövlətə sədaqət amalları isə daima gənc zabitlərə aşılanır"*.

Belə bir nəşri ərsəyə gətirməklə Heydər Əliyevin əziz xatirəsinin yaşadılması və adının əbədiləşdirilməsi işinə dahi rəhbərin yolunun sadiq davamçıları kimi xidmətimiz adından layiqli töhfəni verməyə çalışdıq. İnanırıq ki, kitab oxucularda xoş təəssürat yaradacaq, Heydər Əliyev fenomenini xalqımıza daha yaxından tanıtdıracaqdır. DTX-nin rəisi general-polkovnik Əli Nağıyev nəşrin "Ön söz"ündə fikirlərinə yekun vuraraq bildirir: *"Ümidvaram ki, respublika ictimaiyyətinə təqdim olunan, Ümummilli Liderin 100 illik yubileyinə həsr etdiyimiz bu kitab Ulu Öndərin hər kəsə nümunə ola biləcək həyat məktəbinin indiki və gələcək nəsillərə öyrədilməsində böyük əhəmiyyətə malik olacaq, dövlətə və xalqa dönməz sadiqlik ideyalarının gənclərə aşılanması işinə töhfə verməklə ömrünü Vətənə xidmətə həsr edən hər bir vətənpərvər azərbaycanlı üçün layiqli örnək rolunu oynayacaq"*.

Əminliklə bildiririk ki, fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müasir dövrün çağırışlarına uyğun quran DTX-nin Heydər Əliyev amallarına sadiq əməkdaşları bundan sonra da Ulu Öndərin ölkəmizin təhlükəsizliyinin təmin olunmasında göstərdiyi misilsiz xidmətlərinin yorulmaz təbliğatçısı və təşviqatçısı olacaqlar!

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti***

# "Xınalıq və Köç yolu mədəni landşaftı" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib



Azərbaycanın "Xınalıq və Köç yolu mədəni landşaftı" adlı nominasiya ərazisi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu haqda qərar 2023-cü ilin 18 sentyabr tarixində UNESCO-nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul edilib.

AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyi tərəfindən hazırlanan nominasiyaya əsasən Ümumdünya İrs Ərazisi Xınalıq kəndi də daxil olmaqla, yerli əhalinin istifadə etdiyi ətraf yaylaq (Quba və Qusar) və Mərkəzi Aran bölgəsinə düşən qışlaq ərazilərini (Abşeron və Hacıqabul), həmçinin onların arasında uzunluğu 200 km-dən çox olan tarixi Köç yolunu (Quba-Şamaxı-Qobustan) əhatə edir.

UNESCO-ya təqdim edilən sənədin əsasını Xınalığın köçəri mədəniyyəti təşkil edir. Əks etdirdiyi ümumbəşəri dəyərlər nəzərə alınmaqla, unikallığı ilə seçilən bu zəngin irs "Xınalıq və Köç yolu mədəni landşaftı" adlı nominasiya sənədi 2021-ci ildə Ümumdünya İrs Komitəsinə təqdim edilib.

UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev nominasiya sənədini dəstəkləyən hər kəsə təşəkkürünü bildirib, bu sənəddəki köç yolunun nümunəvi tarixi-iqtisadi model kimi təkcə Azərbaycanın deyil, bütün dünya irsinin nadir nümunələrindən olduğunu qeyd edib.

Fuad Nağıyev ölkəmizin maddi və qeyri-maddi irsinin qorunub saxlanması sahəsinə göstərilən daimi diqqət, qayğı və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edərək məhz bu dəstək sayəsində Xınalıq və Köç yolu ənənələrinin Ümumdünya İrs Ərazisinə salınmasının mümkün olduğunu bildirib.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən İrs Ərazisi 6 inzibati rayonun ərazisindən keçən ümumilikdə 44829,41 hektar (45 min hektara yaxın) İrs Ərazisindən və müvafiq olaraq 109392,78 hektar (109 min hektardan çox) Bufer Zonadan ibarət olan böyük bir mədəni landşaftı əhatə edir.

Dünya İrs Siyahısına salınmış ərazidə köçərilərə aid qədim tarixi qəbiristanlıqlar, müqəddəs yerlər, pirlər, tarixi körpülər, bulaqlar kimi maddi mədəniyyət nümunələri var.

İlk dəfə olaraq tamamilə milli ekspertlər tərəfindən hazırlanan "Xınalıq və Köç yolu mədəni landşaftı" adlı nominasiya Dünya İrsinin 3-cü (ııı) və 5-ci (v) meyarları ilə qeydə alınıb. 3-cü meyar Xınalıq icmasının tarixən köçəri heyvandarlıqla məşğul olduğu vertikal köçəri mədəniyyətinin, 5-ci meyar isə insan-təbiət əlaqələrinin tarazlığı, çətin iqlim şəraitində eko-sosial münasibətlər sisteminin inkişafı və təbiət resurslarından dayanıqlı istifadənin müstəsna nümunəsi kimi təqdim olunub.

Azərbaycanın mədəni irsi üçün əhəmiyyətini, köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada məsuliyyətli turizmin inkişaf etdirilməsi məqsədilə 4 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Xınalıq və Köç Yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu yaradılıb.

Beləliklə, "Xınalıq və Köç yolu" Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən dördüncü mədəni irs ərazisi oldu. Bundan əvvəl Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi də Ümumdünya İrs Siyahısına daxil edilib.

Qeyd edək ki, bir gün öncə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Hirkan meşələri Azərbaycanın ilk təbiət irsi ərazisi olaraq UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

# Azərbaycanın Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib




Azərbaycanın Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Azərbaycanın ilk təbiət ərazisidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bildirib.

O qeyd edib ki, relikt növlərlə zəngin olan və çox maraqlı landşafta malik Hirkan meşələrinin xüsusiyyətləri nəzərə alınaraq, bu unikal ərazinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi təklif olunub, bu məqsədlə Hirkan Milli Parkının daxilində transmilli "Hirkan meşələri" nominasiyası hazırlanıb və 2022-ci ilin sonunda UNESCO-nun Ümumdünya İrs Komitəsinə təqdim edilib.

"Azərbaycanın Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə qərar hazırda UNESCO-nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində davam edən 45-ci sessiyasında qəbul olunub.

Hirkan meşələri Xəzər dənizinin cənub-qərb və cənub sahillərini əhatə edən unikal meşə massividir və planetimizdə öz unikallığını qoruyub saxlayan nadir ekosistemlərdən biridir", - deyə xidmət rəsmisi vurğulayıb.

Belə bir təbiət abidəsinin qorunub mühafizə olunmasının dövlətimizin uzunmüddətli xətt üzrə inkişaf edən ekoloji siyasətinin uğurlu davamı olduğunu söyləyən Firuddin Əliyev bildirib: "Azərbaycanın Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi xüsusilə dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə diqqətinin təzahürüdür. Respublikamızın zəngin təbiətinin qorunması işində və gələcək nəsillərə çatdırılması istiqamətində beynəlxalq səviyyədə qazanılan bu böyük uğura görə hər kəsi təbrik edirik".

# Azərbaycan ilə İsrail arasında müdafiə sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin Müdafiə Nazirliyinin baş direktoru Eyal Zamirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov Azərbaycan-İsrail münasibətlərinin hazırkı yüksək səviyyəsindən məmnunluğunu ifadə edib.

Səmimi görüşə görə minnətdarlığını bildirən E.Zamir mövcud əməkdaşlığın daha da genişləndirilməsi baxımından belə görüşlərin və qarşılıqlı səfərlərin vacibliyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə İsrail arasında müdafiə sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və İranın xarici işlər nazirləri regional vəziyyəti müzakirə ediblər

Sentyabrın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli və regional gündəlikdə duran məsələləri, eləcə də postmünaqişə dövründə cari regional vəziyyəti müzakirə ediblər.

Telefon danışığı zamanı Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrləri arasında keçirilmiş son görüşlərdən irəli gələn məsələlər və atılacaq növbəti addımlar nəzərdən keçirilib.

Bununla yanaşı, son həftələrdə iki ölkə arasında baş prokurorlar, eləcə də hərbi sahədə yüksəksəviyyəli görüşlərin və qurumlararası təmasların Azərbaycan-İran münasibətlərinin inkişafı istiqamətinə verdiyi töhfə yüksək qiymətləndirilib.

İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ölkəmizdə iyul ayının əvvəli keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun nazirlər iclasında iştirak məqsədilə ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşünü bir daha məmnunluqla xatırlayıb.

Nazirlər eyni zamanda iki ölkə arasında münasibətlərin tam normallaşması üçün atılması zəruri olan tədbirləri müzakirə ediblər.

Ceyhun Bayramov Azərbaycan tərəfindən irəli sürülmüş sülh təkliflərinə, bölgədə münasibətlərin normallaşmasına xidmət edən təşəbbüslərə baxmayaraq, Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam etdirdiyi hərbi-siyasi təxribatların bu səylərə zərbə vurduğunu diqqətə çatdırıb. Ermənistan baş naziri Nikol Paşinyanın sentyabrın 2-də qondarma rejimə ünvanladığı təbrikin onun tərəfindən Qarabağ bölgəsi daxil Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsi barədə bəyanatlarla tam ziddiyyət təşkil etdiyini vurğulayıb. Bununla yanaşı, Ermənistanın yaratdığı qondarma rejimin "seçki" adı altında qanunsuz fəaliyyətinin pislənməsinin əhəmiyyəti qeyd edilib. Bölgədə ən böyük təhdidin 10 mindən yuxarı erməni silahlı qüvvələri olduğu xatırlanıb, onların ərazilərimizdən çıxarılmasının və tərk-silah edilməsinin zəruriliyi bildirilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# XİN: "Azərbaycan tərəfi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır"

Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə edilməsi təklifi uzun müddətdir ki, Azərbaycan tərəfindən irəli sürülür və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni zamanda istifadə ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib.

"Bu gün BQXK Azərbaycan tərəfinə müraciət edərək qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə ilkin məlumat verib. Yaxın zamanlarda BQXQ tərəfindən Azərbaycan tərəfinə bu barədə rəsmi nota təqdim edilməsi gözlənilir. Əvvəllər də qeyd edildiyi kimi, Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır", - deyə Ayxan Hacızadə qeyd edib.

# Laçından BQXK-ya məxsus iki minik və bir yük avtomobilinin Xankəndiyə keçidi təmin edilib

Laçın dövlət sərhədindəki buraxılış məntəqəsindən Xankəndi istiqamətinə BQXK-ya məxsus iki minik və humanitar yardım aparan bir yük avtomobilinin keçidi təmin olunub.

AZƏRTAC xəbər verir ki, keçid səhər saatlarında gerçəkləşib. İki minik avtomobili və bir humanitar yüklü TIR maşını prosedurlara uyğun olaraq yoxlanıldıqdan sonra Xankəndi istiqamətində yola davam edib.

Qeyd edək ki, Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə olunması təklifi uzun müddətdir Azərbaycan tərəfindən təklif edilirdi və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.

Ötən gün BQXK Azərbaycan tərəfinə müraciət edərək, qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə məlumat verib. Beləliklə, Azərbaycan tərəfinin təklif etdiyi kimi, ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadə təşkil olunub.

# Azərbaycan nümayəndə heyəti Həştərxanda keçirilən VIII Xəzər Media Forumunda iştirak edir

Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən VIII Xəzər Media Forumunda iştirak edir.




Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin abidəsini, həmçinin Qardaşlıq bağında "Əbədi Şöhrət Məşəli" abidəsini ziyarət edərək önlərinə gül dəstələri düzüb.

Sonra nümayəndə heyəti Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov VIII Xəzər Media Forumunun təşkilinə görə nümayəndə heyəti adından qarşı tərəfə minnətdarlığını bildirib, media sahəsində uğurlu inkişafa nail olmaq üçün beynəlxalq əməkdaşlığın və qarşılıqlı təcrübə mübadiləsinin önəmini vurğulayıb. Əhməd İsmayılov Azərbaycan ilə Rusiya, xüsusilə Həştərxan vilayəti arasında mövcud olan çoxşaxəli əməkdaşlıq istiqamətlərindən danışıb, Xəzər Media Forumunun bu sahədə regional səviyyədə məsələlərin müzakirəsi üçün mühüm platforma olduğunu bildirib.

Görüşdən sonra bir sıra televiziya kanallarına müsahibəsi zamanı icraçı direktor medianın ictimai diplomatiyanın mühüm faktoru olduğunu, həmçinin müxtəlif millətləri və mədəniyyətləri yaxınlaşdıran, informasiya, ideya və mənəvi dəyərlərin mübadiləsinə kömək edən etibarlı vasitə rolunu oynadığını qeyd edib.

Eyni zamanda forum çərçivəsində nümayəndə heyətlərinin rəhbərlərinin görüşü keçirilib.

Görüşdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Əhməd İsmayılov forum gedişində təşkil olunan konstruktiv və məhsuldar müzakirələrin bu sahədə yeni əməkdaşlıq münasibətlərinin qurulması, mövcud münasibətlərin daha da möhkəmləndirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsində xüsusi əhəmiyyət daşıdığını vurğulayıb, media savadlılığının artırılması, peşəkar media nümayəndələrinin hazırlanması, dezinformasiya ilə mübarizə və bir çox digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin mümkünlüyünə diqqət çəkib, daha sonra media sahəsində aktual məsələlər və tendensiyalar, gələcək inkişaf perspektivlərinin analizi istiqamətində qarşılıqlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, VIII Xəzər Media Forumu öz işini növbəti gün plenar iclaslarla davam etdirəcək.

# Türk dünyasının iş adamları "İstanbul forumu"nda yeni təşəbbüslər irəli sürüblər



Sentyabrın 14-15-də Türkiyənin İstanbul şəhərində türk dünyası üçün iki böyük və əlamətdar tədbir keçirilib.

Türk dövlətləri arasında iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, bizneslərin inteqrasiyası, yeni bazarlara çıxış imkanlarında vahid yanaşma tətbiq etmək və digər önəmli məsələlər ətrafında geniş müzakirələr aparılıb və qərarlar qəbul edilib.

Sentyabrın 14-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin iqtisadiyyat və ticarət nazirlərinin görüşü və Türk Dünyası Biznes-Forumu keçirilib.

Türkiyə Respublikasının ticarət naziri Ömər Bolatın sədrliyi ilə keçən Türk Dövlətləri Təşkilatının iqtisadiyyat və ticarət üzrə məsul nazirlərinin 12-ci görüşündə çıxış edən Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev türk dövlətləri arasında əlaqələrin inkişafında ortaq tarix, mədəniyyət və dəyərlərin, ölkələrimizin təmsil olunduğu qurumların, xüsusilə Türk Dövlətləri Təşkilatının mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, təşkilata üzv dövlətlər arasında ticarət dövriyyəsi artıb və nəqliyyat-tranzit, investisiya, rəqəmsallaşma və sairə sahələrdə də əməkdaşlığın gücləndirilməsi təşəbbüsləri mövcuddur.

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Omuraliyev, Özbəkistan Respublikasının gənclər siyasəti və idman naziri Adham İkramov, Qazaxıstan Respublikasının milli iqtisadiyyat nazirinin müavini Abzal Abdikarimov, Qırğızıstan Respublikasının iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Şimali Kipr Türk Respublikasının iqtisadiyyat və energetika naziri Olqun Amcaoğlu çıxışlarında geniş bir coğrafiyada əhatə olunan, böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və bir çox imkanlara malik olan Türk Dövlətləri Təşkilatına üzv ölkələr tərəfindən milli maraqlar nəzərə alınaraq tərəfdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində fikirlər səsləndiriblər.

Türk Dünyası Biznes Forumunda Türk Ticarət və Sənaye Palataları Birliyinin prezidenti Rıfat Hısarcıklıoğlu görülən işlər, türk dövlətləri arasında iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı öz fikirlərini bölüşüb. Sonra Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edib. Konfederasiya prezidenti əsası 3 oktyabr 2009-cu ildə Azərbaycanın Naxçıvan şəhərində qoyulan Türk Dövlətləri Təşkilatının yaradılmasından 14 ilə yaxın vaxt ötdüyünü və təşkilatın inkişafında qardaş ölkələrlə birlikdə dövlətimizin, xüsusilə dövlətimizin başçısı cənab İlham Əliyevin böyük rolu olduğunu vurğulayıb. O bildirib: "Türk dövlətlərinin siyasi birliyi iqtisadi münasibətlərin güclü inkişafını və inteqrasiyanın dərinləşməsini tələb edirdi və təşkilata üzv ölkələrin sahibkarlarının da bir vahid platforma altında birləşməsini şərtləndirirdi. Məhz Türkiyə Odalar və Borsalar Birliyinin xüsusi səyləri nəticəsində Türk Dövlətləri Təşkilatı nəzdində Türk Ticarət və Sənaye Palatası yaradıldı. Palatanın yaradılmasında Azərbaycan Sahibkarlar Konfederasiyası da önəmli yer alıb və üzv olmaqla palatanın gələcək inkişafına öz töhfəsini verib".

Son statistik məlumatlara görə, Türk Dövlətləri Təşkilatının üzvlərinin ümumi ərazisi 4,8 milyon kvadratkilometr, əhalisi 173 milyon nəfərdən çoxdur. Üzv dövlətlərdə ümumi daxili məhsulun (ÜDM) həcmi 1,5 trilyon ABŞ dolları, ticarət dövriyyəsi 1,2 trilyon ABŞ dolları təşkil edir. Ümumilikdə dünya ərazisinin 1 faizə qədərini, ticarət dövriyyəsinin 2,4 faizini Türk Dövlətləri Təşkilatına üzv ölkələr əhatə edir.



Türk Ticarət və Sənaye Palatalar Birliyi ilk növbədə sahibkarların şəbəkələşməsini, bir-birini tanımasını, ölkələrimizin iqtisadiyyatını, onun qaydalarını, özəlliklərini öyrənməyə imkan verdi. Ötən dövr ərzində artıq üzv dövlətlərin hər birində biznes-forumlar təşkil olunub və yeni iqtisadi əməkdaşlıqların əsası qoyulub. Hər bir görüş iqtisadi inteqrasiyaya öz töhfəsini verir və bu görüşlərin böyük əhəmiyyəti var.

Konfederasiya rəhbəri türk dövlətləri arasında iqtisadi əlaqələrin daha da genişlənməsi üçün təkliflərlə çıxış edib:

- "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişin təsdiq edilməsi yükdaşımalara dair ilkin məlumat mübadiləsi əsasında sadələşdirilmiş gömrük dəhlizindən istifadənin hüquqi təməlini təşkil edir. Bu isə daşımalarda səmərəliliyin artırılmasına, yüklərin sərhəd nəzarətindən keçirilməsinin optimallaşdırılmasına, nəqliyyat və logistika sisteminin inkişafı və bu proseslərin asanlaşdırılması və təhlükəsizliyinin təmin edilməsinə, ölkələrimizin ticarət dövriyyəsinin artırılmasına təkan verəcəkdir. Bu istiqamətdə coğrafi mövqeyini və logistika imkanlarını nəzərə alaraq Azərbaycanın mərkəz rolunu oynamasını təklif edirik. Regional dəyər zəncirlərinin formalaşması üçün Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında ticarət və tranzit koridorlarının, o cümlədən Zəngəzur dəhlizinin qurulması və inkişaf etdirilməsi mühümdür.
- Türk Ticarət və Sənaye Palataları Birliyi ölkələrində dəyər zəncirinin qurulması mühüm amildir. Yüksək əlavə dəyər yaradan məhsul istehsal edərək, ölkələrimizin birgə fayda əldə etməsinə nail olmalıyıq.
- Üzv ölkələr arasında insan kapitalının hərəkəti və şirkətlərin işçilər səviyyəsində təcrübə mübadiləsinin aparılması, bilik və bacarıqların artırılması üçün təlim proqramlarının təşkili vacibdir.
- Davamlı və dayanıqlı ticarət mühitinin formalaşması üçün təşkilata üzv ölkələr arasında yarana biləcək ticarət ilə bağlı mübahisələrin həlli mexanizmlərinin hazırlanmasını təklif edirik.
- Onlayn əməliyyatları və transsərhəd məlumat axınını asanlaşdıran rəqəmsal ticarət (e-ticarət) üçün vahid platformanın hazırlanması, məhsul və xidmətlər üzrə mövcud texniki standartların, hüquqi tənzimləmələrin vahid bir formaya salınması sahəsində görülməli işlər çoxdur.
- Türk İnvestisiya Fondunun fəaliyyətə düşməsi və üzv ölkələrdə fəaliyyətinin genişləndirilməsi, şübhəsiz, biznes ictimaiyyətinin ən çox gözlədiyi məqamlardandır.
- Bir təklifim də ondan ibarətdir ki, təşkilatımıza üzv ölkələr arasında vahid İnkişaf Bankı yaradılsın. Bu, mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Qara Dəniz Ticarət və İnkişaf Bankı, İslam İnkişaf Bankı və s. kimi örnəkləri sadalamaq olar.

M.Musayev Türkiyə və Azərbaycanın İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasında birgə fəaliyyətinə də toxunub:

"Bilirsiniz ki, cənab Rıfat Hisarcıklıoğlu və mən İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatında Direktorlar Şurasının üzvüyük. Hesab edirəm ki, türk dövlətlərinin İslam dünyası ilə əlaqələrinin gücləndirilməsinə böyük töhfə verə bilərik. İslam ölkələri kənd təsərrüfatı və xüsusən də halal qida seqmenti üzrə türk dövlətlərinin iş adamları üçün maraqlı və yeni bir coğrafiyadır".

Sonra konfederasiya prezidenti Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda görülən işlər, iş adamları üçün yaradılmış münbit şəraitə toxunaraq, "Türk dünyasının iş adamlarını Qarabağa investisiya yatırmağa, onun iqtisadi imkanlarından faydalanmağa çağırır" və bu fəaliyyətdə "Sizinlə birlikdəyik, Sizin yanınızdayıq", - deyib.

Digər çıxışçılar da təşkilata üzv ölkələrin ticarət və investisiyalar, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər kimi sahələrdə tərəfdaşlığı dərinləşdirməsi üçün böyük potensialın olduğunu qeyd ediblər. Türk İnvestisiya Fondunun yaradılması qarşılıqlı layihələrin maliyyələşdirilməsi və üzv ölkələr arasında gələcək əməkdaşlığın gücləndirilməsi üçün mühüm perspektivlər vəd edir.

Forum işgüzar dairələrin iştirakı ilə keçirilən ikitərəfli (b2b) görüşlərlə davam edib.

Forumun iştirakçıları Azərbaycanın Ticarət Nümayəndəliyində də görüş keçiriblər. Görüşdə Türk Ticarət və Sənaye Palataları Birliyinin rəhbəri Rıfat Hısarcıklıoğlu, iqtisadiyyat nazirinin müavini Elnur Əliyev, Azərbaycanın ticarət nümayəndəsi Tamerlan Tağıyev, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev və sahibkarlar iştirak ediblər. Burada Azərbaycan Ticarət Nümayəndəliyinin fəaliyyəti, ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşları, birgə müəssisələrin yaradılması və digər mövzularda maraqlı müzakirələr aparılıb.

Sentyabrın 15-də Dünya Türk Biznes Şurasının (DTİK) 10-cu Qurultayının keçirilməsi Türkiyə Prezidenti cənab Rəcəp Tayyib Ərdoğanın iştirakı ilə xüsusi önəm daşıyıb. Qurultayın açılış mərasimi çərçivəsində "Türk Dövlətləri Təşkilatı ilə 5 dövlət 1 diaspor" sessiyası təşkil edilib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyətinin də təmsil olunduğu bu tədbirdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin diaspor təşkilatları arasında tərəfdaşlığın genişləndirilməsi, birgə investisiya imkanları barədə müzakirə aparılıb.

Sessiyada iştirak edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkəmizdə əlverişli işgüzar mühit, özəl sektorun inkişafı, işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialı, TDT çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarına dair fikirlərini bölüşüb, sualları cavablandırıb.

# Əbədiləşən alim ömrü

## O, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, professor idi

**Ömrünün qədəri əlli üç il oldu. Xatirələrdə, elm aləmində yaşı isə sonsuzluğa qovuşdu. İstedadının və əməyinin sayəsində həyata keçirmiş olduğu işlərlə Aida İmanquliyeva əbədiyyətdə məkan tapdı...**



### Elmin çətin və şərəfli yolu...

O, 1939-cu il oktyabrın 10-da Bakıda dünyaya gəldi. Aida xanım görkəmli jurnalist, Əməkdar elm xadimi, uzun illər "Bakı" və "Baku" qəzetlərinin redaktoru vəzifəsində çalışmaqla bərabər, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində dərs deyən Nəsir İmanquliyevlə Şamaxının əsilzadə nəslindən olan Gövhər İmanquliyevanın (Sultanzadə) yeganə övladı, gözlərinin nuru, onların ən böyük ümidi, sevinci idi. Aida İmanquliyeva uşaqlıq çağlarından sevgi və nəvazişlə əhatə olunmuşdu. Valideynləri onu vətənə gərəkli bir övlad kimi böyüdür, tərbiyə verirdilər.

Kiçik yaşlarından oxuyub öyrənmək marağı ilə gələcəyinin uğurlu olacağına həm valideynlərini, həm də Bakının 132 saylı orta məktəbində ona dərs deyən müəllimlərini inandırdı. Bakının bu məşhur təhsil ocağını qızıl medalla başa vurdu. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ərəb şöbəsinə qəbul oldu. Orta məktəbdə olduğu kimi, ali məktəbdə də savadlı, bacarıqlı, çalışqan tələbə kimi müəllimlərini ümidləndirdi. Universiteti 1962-ci ildə fərqlənmə diplomu ilə bitirdi. Hansı sahədə çalışaydı, biliyi, istedadı və zəhmətsevərliyi onu tanıdacaq, ucaldacaqdı. Aida İmanquliyeva elmin çətin və şərəfli yolunu seçdi. O, 1966-cı ildə SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasını ərəb filologiyası üzrə bitirdi, uğurla "Qələmlər cəmiyyəti" və Mixail Nüaymənin onun yaradılmasında rolu" adlı namizədlik dissertasiyasını müdafiə etdi. Ölkənin aparıcı mütəxəssisləri onun dissertasiya işini yüksək dəyərləndirdilər. Həmin il doğma Bakıya qayıtdı. Azərbaycan SSR Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda böyük arzularla, tükənməz həvəslə fəaliyyətə başladı. İlk günlərdən işinə məsuliyyətlə yanaşırdı.

Oxuyub öyrəndiklərinə, araşdırdıqlarına qane olmaqla və yalnız fitri istedadına güvənməklə böyük arzulara çatmağın mümkünsüzlüyünü yaxşı bilirdi. Aida xanımın həyata keçirmək istədiyi işlər həddindən artıq çox, olduqca çətin və gərəkli idi. Gənc alim yorulmadan çalışır, fitri istedadını zəhməti ilə cilalayırdı. Böyük həvəslə və qətiyyətlə apardığı araşdırmaların nəticələri dəyərli əsərlərdə əksini tapırdı.

1975-ci ildə iki monoqrafiyası çapdan çıxdı. "Qələmlər cəmiyyəti" və Mixail Nüaymə" adlı birinci monoqrafiya namizədlik dissertasiyası əsasında hazırlandı, SSRİ EA Şərqşünaslıq İnstitutu tərəfindən çapa tövsiyə edildi və Moskvada "Şərq ədəbiyyatı" nəşriyyatında nəşr edildi. Əsəri yüksək dəyərləndirən moskvalı alim İ.E.Bilık bildirirdi: "Aida xanımın kitabı müasir ərəb ədəbiyyatına güclü təsir göstərmiş ərəb mühacirət ədəbiyyatı kimi mühüm və maraqlı hadisəyə həsr olunmuşdur. Bu əsər sovet ərəbşünaslığında A.E.Krımski və İ.Y.Kraçkovskidən sonra, əslində, ilk ciddi işdir". Aida İmanquliyevanın həmin il Bakıda "Elm" nəşriyyatında çapdan çıxan "Cübran Xəlil Cübran" monoqrafiyası da ərəbşünas alimlər tərəfindən böyük rəğbətlə qarşılandı.

### İstedad, zəhmət və məsuliyyətin gətirdiyi uğurlar

Uğurları onu nəinki arxayınlaşdırmır, özünə qarşı məsuliyyət hissini daha da artırırdı. Elmi fəaliyyəti gündən-günə genişlənirdi. Artıq onu yalnız Azərbaycanda deyil, dünya şərqşünaslıq elmində bir-birindən maraqlı, sanballı elmi əsərlərin müəllifi kimi tanıyır, istinad edirdilər.

Aida İmanquliyevanın 70-dən çox məqaləsi müxtəlif ölkələrin nüfuzlu elmi jurnallarında dərc olundu. O, SSRİ Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq Ədəbiyyatlarının Tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü seçildi. Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle, Tbilisi, Düşənbə və başqa şəhərlərdə təşkil olunan elmi konqreslərdə, simpoziumlarda, sessiyalarda məruzələr etdi. Bu məruzələr müzakirələrə səbəb olur, uzun müddət yaddan çıxmırdı.

1989-cu ildə Tbilisidə filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyanın müdafiəsi onun növbəti uğuru oldu. 1991-ci ildə "Elm" nəşriyyatında Aida İmanquliyevanın uzun illər üzərində işlədiyi bu dissertasiya əsasında hazırlanmış "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyası işıq üzü gördü. Monoqrafiya haqqında çoxsaylı məqalələr, rəylər yazıldı. Alimlər tərəfindən tədqiqatın elmi əhəmiyyəti xüsusi qeyd edildi. "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyası yalnız Azərbaycanın deyil, bir çox ölkələrin şərqşünasları üçün əlamətdar hadisə oldu.

### Azərbaycan şərqşünaslıq elminin inkişafına dəyərli töhfələr

Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elminin inkişafına dərin araşdırmaları, qələmə aldığı orijinal elmi əsərləri ilə dəyərli töhfələr verirdi. Güclü elmi-təşkilatçılıq qabiliyyəti isə onu vəzifə pillələrində yüksəldirdi. Aida xanım 1966-1976-cı illərdə kiçik elmi işçi, sonra baş elmi işçisi olduğu Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda 1972-ci ildən ərəb ədəbiyyatı qrupuna rəhbərlik etdi. 1976-cı ildən yeni yaradılmış ərəb filologiyası şöbəsinin müdiri seçildi. 1988-ci ildə o, institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edildi. 1991-ci ildən isə institutun direktoru oldu.

Fəaliyyətə başladığı ilk illərdən ona istedadlı, zəhmətsevər alim kimi, həm də yüksək insani keyfiyyətlərinə görə rəğbət bəsləyirdilər. Böyük və zəngin ənənələrə malik bir elmi instituta rəhbər seçilməsi Aida İmanquliyevaya uzun illər çalışdığı bu doğma elm ocağının problemlərini həll etmək imkanını genişləndirdi. Vacib məsələlər yenidən nəzərdən keçirildi. İnstitutun yeni strukturu hazırlandı. Təzliklə Aida İmanquliyevanın rəhbərliyi altında mühüm elmi işlərin, tədqiqatların həyata keçirilməsinə qərar verildi.

Arzuları kimi görəcəyi işlər də çox idi. Ancaq ölkədə gərgin, mürəkkəb ictimai-siyasi hadisələr baş verirdi. Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) hökmranlığı bitmişdi. Azərbaycanın müstəqilliyinə qovuşması onu fərəhləndirirdi. Vətənsevər, millətpərvər ziyalılarımızdan olan Aida xanım üzərinə düşən məsuliyyəti yaxşı bilirdi. Azərbaycan müstəqilliyinin ilk çağlarında ağır sınaqlarla üzləşmişdi. Yaranan iqtisadi böhran bütün sahələrdə olduğu kimi, elmi müəssisələrdə də işləri çətinə salmışdı.

Belə ağır vaxtlarda Şərqşünaslıq İnstitutunun direktoru görüləcək labüd işləri dəqiqləşdirdi. Nə zamanın çətinliyi, nə də qarşıda duran işlərin həddindən artıq çox olması onu yormur, həvəsdən sala bilmirdi. Kadr hazırlığına diqqətin artırılması, bir sıra əməkdaşların instituta cəlb edilməsi, attestasiya aparılması, onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılması lazım idi. Eyni zamanda institutun fəaliyyətinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-publisistik jurnalın təsis olunması da həyata keçirilməsi vacib olan işlər sırasında idi. Azərbaycan şərqşünaslıq elminin inkişafı naminə görüləcək bu işləri reallaşdırmaq asan deyildi. O, qətiyyətlə çalışır, müşkülləri aşmağa səy göstərirdi. Çətinlikləri, laqeydlikləri gördükcə ruhdan düşmürdü. Elmi işçilərin hər birinin qayğısına qalır, daha yaxşı çalışa bilmələrinə şərait yaradırdı. Direktorun iradəsi, qətiyyəti və əzmkarlığı əməkdaşları da həvəsləndirirdi. Şərqşünaslıq İnstitutunda canlanma yaranırdı.

Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşriyyat bazasının yaradılması üçün danışıqlar aparılırdı. İnstitutun İran və Türkiyənin konsulluqları vasitəsilə həmin ölkələrlə elmi əlaqələri genişləndirilirdi.

Həmin illərdə Azərbaycanın üzləşdiyi ən böyük problemlərdən biri işğalçı ermənilərin Dağlıq Qarabağı münaqişə ocağına çevirmələri idi. Vətənini çox sevən görkəmli ziyalı müxtəlif ölkələrin nümayəndələri ilə görüş və söhbətlərində, yüksək tribunalardan etdiyi çıxışlarında erməni yalanlarından, Ermənistanın işğalçılıq siyasətindən danışır, əsl həqiqətləri dünyaya çatdırmağa çalışırdı.

Aida İmanquliyeva SSRİ və Azərbaycan rəhbərliyinə institut adından etiraz müraciətləri göndərmişdi. Şərqşünaslıq İnstitutunda Aida xanımın tapşırığı ilə yüz il ərzində törədilmiş erməni cinayətləri, onların barəsində mətbuatda, arxivlərdə olan məlumatların yer verildiyi "Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada. Hadisə və faktların xronikası" adlı kitab hazırlandı. Kitab əvvəl ərəb dilində işıq üzü gördü.

Aida İmanquliyevanın çoxşaxəli yaradıcılığında tərcüməçilik fəaliyyətinin də xüsusi yeri var. O, müxtəlif illərdə Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru oldu.

Aida xanımın müstəqil Azərbaycanın savadlı, vətənpərvər gənc nəslinin yetişdirilməsində xidmətləri təqdirəlayiq idi. Belə ki, Aida İmanquliyeva həm də bacarıqlı pedaqoq idi. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyirdi. "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə 1991-ci ilin martında ona professor elmi vəzifəsi verildi. Aida İmanquliyeva Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor oldu.

Fəaliyyət dairəsinin geniş olması elmi işlərinə mane olmurdu. Yorulmaq bilmədən apardığı araşdırmaların nəticələri yeni tədqiqat əsərlərində əksini tapırdı. Görkəmli alim xalqının bağlı olduğu Şərq qədər Qərb mədəniyyəti və ədəbiyyatını da dərindən bilirdi. Şərq və Qərb mədəniyyətinin sintezi, yaradıcı üslub və yeni bədii cərəyanların təşəkkülünü tədqiq edirdi. Onun elmi yaradıcılığında bu iki mədəniyyətin vəhdəti mühüm yer tuturdu.

Aida İmanquliyeva çoxşaxəli yaradıcılığına, elmi-təşkilati işlərinin çoxluğuna baxmayaraq, ailəsinə, övladlarına, nəvələrinə sevgisini, qayğısını, nəvazişini heç vaxt əsirgəməzdi. O, qayğıkeş qadın, əziz ana, sevimli nənə idi.

Kiçik qızı Mehriban Əliyeva Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidentidir.

Böyük qızı Nərgiz Paşayeva filologiya elmləri doktoru, professor, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədridir. Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəridir.

Görkəmli alim, pedaqoq, tərcüməçi Aida İmanquliyeva 1992-ci il sentyabrın 19-da dünyasını dəyişdi. Dərin elmi əsərləri və tanıyanların yaddaşında qalan nurlu xatirələri Aida xanımın yaşının əlli üçüncü ilində əbədiləşən ömrünü davam etdirir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Milli Musiqi Günündə Üzeyir bəy Hacıbəylinin məzarı ziyarət olunub





18 sentyabr adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış dahi bəstəkar, musiqişünas, publisist, ictimai xadim Üzeyir bəy Hacıbəylinin anadan olmasının 138-ci ildönümüdür. Bu gün həm də böyük bəstəkarın şərəfinə ölkəmizdə Milli Musiqi Günüdür.

2009-cu ildən Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkarın adı ilə şərəflənən ənənəvi beynəlxalq musiqi festivalı da keçirilir. Bu il adıçəkilən mötəbər musiqi şöləni artıq 15-ci dəfə gerçəkləşir.

Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq I Fəxri xiyabanda Üzeyir bəyin məzarının ziyarət olunması ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin məsul əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli mərasimə toplaşanları Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 18 sentyabrın mədəniyyətimizin ən əlamətdar günlərindən biridir: "Bu gün dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin doğum günüdür. 18 sentyabr tarixi, həmçinin böyük musiqi xadiminin şərəfinə ölkəmizdə Milli Musiqi Günü ("Üzeyir musiqi günü") kimi qeyd olunur. Əlamətdar gün Üzeyir bəyin 110 illiyi münasibətilə Ulu Öndər Heydər Əliyevin 1995-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilib. Bununla bağlı ölkəmizdə hər il silsilə tədbirlər keçirilir, bəstəkarın mədəniyyətimiz qarşısında misilsiz xidmətləri yada salınır. Bu il də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 18-dən 28-dək Üzeyir bəy Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Festival çərçivəsində müxtəlif tədbirlər keçiriləcək, bir sıra ölkələrdən ifaçı və kollektivlər çıxış edəcək. Musiqi bayramınız mübarək olsun".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə dahi bəstəkarın ölməz irsindən söz açıb. Bildirib ki, nə qədər ki, Azərbaycan xalqı var, dahi bəstəkarın ölməz irsi hər zaman yaşayacaq.

Çıxışlardan sonra mərasim iştirakçıları I Fəxri xiyabanda uyuyan Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin də məzarlarını ziyarət ediblər.

# Milli Konservatoriyada konsert proqramı təqdim olunub





Azərbaycan Milli Konservatoriyasında 18 Sentyabr - Milli Musiqi Günü münasibətilə konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, konsertdən əvvəl çıxış edən konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin Azərbaycan musiqisinin inkişafındakı xidmətlərindən söz açıb. Qeyd edib ki, Üzeyir bəy Hacıbəylinin mirasına hörmət olaraq 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb. Artıq neçə ildir, xalqımız bu bayramı qeyd edir. Sonra çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov bildirib ki, xalqımızın ölməz sənətkarları arasında Üzeyir bəy Hacıbəylinin böyük rolu var. Onun əsərləri bəstəkarlar üçün böyük nümunə olub. Vurğulayıb ki, musiqimizin uğurları Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır.

Sonra Azərbaycan Milli Konservatoriyasının tələbə orkestri və tələbə xoru konsert proqramı ilə çıxış edib.

# Bakı Musiqi Akademiyasında Üzeyir bəyin doğum günü qeyd edilib

Sentyabrın 18-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir bəyin doğum gününə və Milli Musiqi Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli dahi bəstəkarın musiqimizin inkişafındakı xidmətlərindən danışıb. Qeyd edib ki, xalqımızın musiqi mədəniyyəti tarixində Üzeyir bəy Hacıbəylinin böyük rolu olub, onun qoyduğu ənənələrə sadiq qalaraq musiqimizi inkişaf etdirmək vacibdir.

Sonra konsert proqramı təqdim olunub. Konsertdə Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestri (bədii rəhbər və baş dirijor Xalq artisti, general-mayor Yusif Axundzadə), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Xalq artisti Gülbacı İmanova), Əməkdar artist Xəyyam Mustafazadə, solistlər Aynur İsgəndərli, Kənan Qədimov və başqaları çıxış ediblər. Proqramda Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" və "Rəqs", "Ey Vətən", M.Maqomayevin "Odlar yurdu", F.Bədəlbəylinin "Anamız Azərbaycan", R.Axundzadənin "Qələbə marşı" əsərləri və "Heyratı" zərbi muğamı səsləndirilib.

Qeyd edək ki, Üzeyir bəy Hacıbəylinin 1908-ci il yanvarın 18-də Bakıda, H.Z.Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulub. Üzeyir bəy "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları ilə Şərqdə musiqili teatrın banisi kimi tanınıb. Üzeyir bəy Hacıbəyli yaradıcılığının zirvəsi, şah əsəri olan "Koroğlu" operası Azərbaycan musiqi sənəti tarixində yeni bir səhifə açıb. Üzeyir bəy Azərbaycanda musiqişünaslığın, musiqi təhsilinin əsasını qoyub və ömrünün sonunadək musiqi mədəniyyətimizin inkişafına rəhbərlik edib. Görkəmli alimləri onu "professional Şərq musiqisinin atası" adlandırıb.

Üzeyir bəy Hacıbəylinin yaradıcılıq yolu bu gün də uğurla davam etdirilir. Onun yaratdığı bəstəkarlıq məktəbinin yetirmələri sayəsində Azərbaycan musiqisi dünyada tanınır və sevilir. Azərbaycan musiqiçilərinin nüfuzlu beynəlxalq festival və müsabiqələrdə qazandıqları mükafatlar bunu bir daha təsdiq edir.

# "Azərişıq" ASC Xaçmazın daha yeddi kəndində yenidənqurma işlərini yekunlaşdırıb

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən yenidənqurma layihəsi çərçivəsində bütün regionlarda olduğu kimi Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsinin ərazisinə daxil olan kəndlərdə də genişmiqyaslı işlər davam etdirilir.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Xaçmaz rayonunda artıq 7 kənddə - Yürgüc, Əhmədoba, Hacıəhmədoba, Sərkərli, Üçgün, Padar və Armudpadar kəndlərində işlər yekunlaşıb. Uzunoba, Xanoba və Şıxlı kəndlərində isə işlər davam etdirilir.

İşlərin yekunlaşdığı kəndlərdən biri də Xaçmazın 600-ə yaxın abonenti olan Yergücdür. Yenidənqurma işləri çərçivəsində 7 KTM, 150-ə yaxın 10 kv dayaq və 15 km-dən artıq 10 kv-luq kabel xətti, həmçinin 900-ə yaxın 0.4 kv dayaq, 20 km uzunluğunda 0.4 kv-luq sip kabel xətti çəkilib. Köhnə elektrik şəbəkəsinin kənd sakinləri üçün yaratdığı problemlər geridə qalıb.

Hacıəhmədoba kəndində də yenidənqurma işləri başa çatıb. Abonentləri fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün yeni KTM-lər quraşdırılıb, köhnə dayaqlar yenisi ilə əvəzlənib, eyni zamanda kabel xətləri müasirləri ilə əvəz olunub.

Digər kəndlərdə də yenidənqurma işləri yekunlaşdıqdan sonra Xaçmaz rayonunda ümumilikdə 15 minə yaxın sakin keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz olunacaq.

# COVID yenidən qayıdır

## Dünya həyəcan təbili çalır



COVID-19 hələ də bəşəriyyəti təhdid edən problem olaraq qalır. Dünya ölkələrinin pandemiya ilə effektiv mübarizəsinə baxmayaraq, onun qarşısını tamamilə almaq hələ tam mümkün olmayıb.

Son bir ayda dünyada 1,5 milyon nəfər yeni növ koronavirus infeksiyasına yoluxub. Bu, daha çox virusun mutasiyalarının sürətlə yayılmasından qaynaqlanır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünya üzrə yoluxanların sayı 38 faiz artıb. Yoluxma sayında kəskin artım Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda qeydə alınıb.

### Yeni ştamm "yüksəliş"dədir

Hazırda dünyanın bir sıra ölkələrindəki yoluxma sayındakı artım qabaqlayıcı addımların atılmasına səbəb olub. ÜST xəbərdarlıq edir ki, koronavirusun EG.5 D-19 ştamı "yüksəliş"dədir. Bu variantın dövr edən digər ştamları əvəz etməməsi faktı təşkilatın narahatçılığına səbəb olur.

ÜST-nin baş direktoru Tedros Gebreyesus bildirib ki, qış mövsümü ərəfəsində şimal yarımkürəsində "həyəcanlı tendensiyalar" müşahidə olunur. Onun məlumatına görə, Yaxın Şərqdə və Asiyada ölüm hallarının sayı artır, Avropada koronavirusun bu variantı ilə intensiv terapiya şöbələrinə pasiyentlərin yerləşdirilməsi hallarının sayı çoxalır. T.Gebreyesus qeyd edib ki, ən böyük problemlərdən biri risk qrupundan olan və son zaman COVID-19 əleyhinə vaksin dozasını almayan insanlarda aşağı immunizasiya səviyyəsidir. O, hər kəsi, xüsusən risk qrupunda olanları ehtiyac olacağı təqdirdə revaksinasiya olmağa çağırır.

Rusiya Operativ Qərargahının məlumatına görə, son bir həftə ərzində Rusiyada COVID-19-a yoluxma halları əvvəlki həftə ilə müqayisədə təxminən 50 faiz artıb. Buna görə də bəzi müəssisələrdə müvəqqəti olaraq müəyyən lokal məhdudlaşdırılmalar tətbiq olunub. Rusiyanın Altay vilayətində COVID-ə yoluxma artdığına görə, 49 məktəbdə karantin məhdudiyyətləri tətbiq olunub, 6 məktəb isə ümumiyyətlə, bağlanıb. Hətta dünəndən etibarən Rusiya Hökumət Evində maska rejimi bərpa olunub.

Hazırda ABŞ-də COVID-19-a yoluxma 2020-ci ilin statistikasına yaxınlaşır. Ölkədə hər gün 650 mindən artıq vətəndaşda virus aşkarlanır. Yaxın aylarda əhalinin 10 faizə yaxınının virusa yoluxacağı proqnozlaşdırılır. Son həftə ərzində ABŞ-də koronavirusa görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7 faiz, ölüm halları isə 4,5 faiz artıb.

İtaliyada isə ötən həftə ərzində koronavirusa yoluxanların sayında 44 faiz artım qeydə alınıb. Belə ki, ölkədə son bir həftədə hər 100 min sakinə 52 yoluxma düşüb. Artan infeksiyalar fonunda İtaliyanın Səhiyyə Nazirliyi müvafiq simptomlarla təcili yardım şöbələrinə daxil olanlar üçün yenidən COVID-19 testini məcburi edib.

Rumıniyada hər gün iki min koronavirusa yoluxma halı qeydə alınır. Bu barədə ölkənin səhiyyə naziri Aleksandru Rafile məlumat verib. O qeyd edib ki, hökumət virus əleyhinə dərmanların kütləvi alınmasına başlayıb. Eyni zamanda nazir bu prosesi tez bir zamanda başa çatdıracağına söz verib.

Latviyada yayda test nəticələrinin 5-10 faizi pozitiv olduğu halda, hazırda bu rəqəm 25 faizə yaxınlaşır. Ölkə əhalisinə bir həftə evdə qalaraq digər şəxslərlə kontakt qurmamaq, küçəyə çıxan zaman isə respiratorlardan istifadə etmək tövsiyə olunub.

### ÜST Çinə təzyiq göstərir

Ümumdünya Səhiyyə Təşkilatı Çinə koronavirusun mənşəyi haqqında tam məlumat əldə etmək üçün təzyiq göstərir. Bunu Britaniyanın "Financial Times" qəzetinə müsahibəsində ÜST-nin baş direktoru Tedros Gebreyesus deyib: "Biz Çinə tam girişi təmin etmək üçün təzyiq edirik. Çin rəsmiləri ilə ikitərəfli görüşlərdə bu məsələni qaldırmalarını xahiş edirik".

Baş direktor vurğulayıb ki, təşkilat koronavirusun səbəbləri ilə bağlı tam araşdırma aparmaq üçün Çinə nümayəndə heyəti göndərmək istəyir. Eyni zamanda o qeyd edib ki, hazırda virusun yaranmasının bütün mümkün variantları, o cümlədən laboratoriya nəzəriyyəsi nəzərdən keçirilir: "Aydın dəlil almayana qədər heç nə deyə bilmərik. Cavab alacağıq. Bu zaman məsələsidir".

T.Gebreyesus deyib ki, "COVID-19-un mənşəyinin səbəblərini anlamaq növbəti pandemiyanın qarşısını almağa kömək edəcək".

### Çıxış yolu peyvənd və gigiyena qaydalarına əməl etməkdir

Mütəxəssislərin fikrincə, qış aylarına doğru yoluxma sayında daha çox artım müşahidə oluna bilər. Bu riski azaltmaq üçün vətəndaşlara diqqətli və tədbirli olmaq tövsiyə edilir. Virusun yayılmasının qarşısını yalnız birgə səylər nəticəsində almaq mümkündür. Vətəndaşlar ehtiyatlı olmalı, sosial məsafəni mümkün qədər qorumalı, gigiyena qaydalarına riayət etməlidirlər.

Xəstəliyə artıq yoluxmuş və ya əlamətlərini daşıyan şəxslərin özlərini təcrid etmələri tövsiyə olunur. Tibbi maskalardan istifadə etməklə yoluxmanın artmasının qarşısını almaq mümkündür.

Dünyadakı epidemioloji vəziyyət və ölkədə yeni tədris ilinin başlaması nəzərə alınaraq, hər kəs gigiyena qaydalarına xüsusi diqqət yetirməli, profilaktik tədbirləri gücləndirməlidir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Avropada həkim çatışmır

Avropadakı həkimlər pis iş şəraiti səbəbindən onların və xəstələrinin sağlamlığının risk altında olduğunu deyirlər. "Euronews" telekanalı bunun səbəbini öyrənmək üçün həkimlər arasında sorğu keçirib.

Bəlli olub ki, Avropada bir çox həkim təqaüdə çıxmış və ya peşəni tərk etmiş həmkarlarından daha çox xəstə qəbul etməli olurlar. Fransa Tibb Assosiasiyasının vitse-prezidenti Jan-Marsel Murq bildirib ki, həkimlərin mövcud vəziyyəti dəhşətli nəticələrə gətirib çıxarır: "Bu, müalicədən imtina etmək və tibbi xidmətin keyfiyyətini itirmək, həmçinin xəstələrin müalicəsini gecikdirmək deməkdir".



### Xəstələr risk altındadır

Fransa və Portuqaliyada hər on nəfərdən bir adamın ümumi praktika həkimi yoxdur, bu, müalicənin sürətini aşağı salır. Xəstələr digər mütəxəssislərə müraciət etməyə məcbur olurlar.

Doktor Murqun dediyinə görə, 2022-ci ildə ölüm halları sayında artım olub. Əslində, pandemiyadan sonra bu gözlənilmirdi: "Bəziləri bunun qrip və ya qlobal istiləşmə ilə bağlı olduğunu deyəcək. Amma bu, belə deyil, proses çox mürəkkəbdir və güman ki, qarşısını almaq olar, lakin insanlar müalicəyə çox gec başlayırlar".

İspaniyada da vəziyyət eynidir. Ölkənin Tibb Birlikləri Konfederasiyasının baş katibi, doktor Qabriel del Pozo Sozun sözlərinə görə, tibbi xidmətin keyfiyyəti pisləşib: "Bu, xəstələrimizə qayğı göstərmək istəməməyimizə görə deyil. Bunun səbəbi onları müayinə etmək üçün orta hesabla səkkiz dəqiqə vaxtımızın olmasıdır və biz hər gün səksənə qədər pasiyent qəbul edirik. Biz normal işləyə bilmək üçün kifayət qədər yuxu almırıq".

O, həddən artıq iş və yüklənmə ucbatından həkimlər arasında xəstəlik məzuniyyətinin də artdığını qeyd edib.

### Yeni həkimləri işə götürmək niyə bu qədər çətindir?

Avropa İttifaqına üzv olan hər bir ölkənin gələcək həkimlərin hazırlanması üçün öz spesifik tələbləri, eləcə də sabit maaşları var. Bununla belə, müsahibə verən bütün həkimlər eyni müşahidələri aparıblar: gələcək nəsillər aşağı maaşlar üçün uzunmüddətli təhsil almaqdan çəkinirlər.

İtalyan Həkimlərinin Muxtar İttifaqının üzvü doktor Federiko di Rentsonun fikrincə, bu, qismən 1999-cu ildən praktik olaraq dondurulmuş tələbə təqaüdləri ilə bağlıdır.

Portuqaliyalı həkimlər isə işçi qüvvəsi çatışmazlığı ilə mübarizə aparırlar. Bu günlərdə ümumi praktika həkimləri tətil elan edərək, digər ölkələrlə müqayisədə onların maaşlarının xeyli aşağı olmasına etirazlarını bildiriblər.

Həftədə qırx saat işləyən mütəxəssis ayda təxminən 1800 avro qazanır. 1200 avrodan aşağı qiymətə ikiotaqlı ev kirayələmək isə mümkün deyil...", - deyə Portuqaliya Həkimlərinin Müstəqil İttifaqından doktor Xorxe Roke Kunya bildirib.

Bu maaşlar orta əməkhaqqından çox olsa da, Portuqaliyada mövcud mənzil böhranı həyat keyfiyyətini aşağı salır.

### Problemin həlli yolları nədir?

Avropalı həmkarlarının acınacaqlı vəziyyətindən danışan Federiko di Renzo "biz bütün sistemi tarazlamalıyıq" deyir. Onun üçün hər şey rəqəmlərlə bağlıdır: maaşlar və ilk növbədə personal seçimi.

Avropa Həkimlərinin Daimi Komitəsinin baş katibi Sarada Das hesab edir ki, səhiyyə sektorunda işçi qüvvəsinin planlaşdırılmasına sərmayə qoyulmalıdır.

Onun fikrincə, kadr çatışmazlığını aradan qaldırmaq üçün həkimlərin iş saatlarını uzatmaq yolverilməzdir: "Əgər bir ölkə bunu dərk edirsə, bu o deməkdir ki, artıq işçi qüvvəsi çatışmazlığı yaşayır. Üzv dövlətlər gələcək tələbatı qiymətləndirməli və özlərinə sual verməlidirlər: bizə hansı işçi qüvvəsi lazımdır, daha çox mütəxəssis yetişdirməliyikmi?"

Sarada Das bildirib ki, ümumi praktika həkimi hazırlamaq üçün təqribən on il, mütəxəssislər hazırlamaq üçün isə daha çox vaxt lazımdır.

Ümumdünya Səhiyyə Təşkilatının 14 sentyabr 2023-cü il tarixdə dərc edilən hesabatında səhiyyə sektorunda kadrlarla bağlı bu problemlərin hərəkəti ləngidilmiş "saat bombası" olduğu və təcili tədbirlər görülməsə, vəziyyətin daha da pisləşə biləcəyi barədə xəbərdarlıq edilir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.09.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


"Şərur" MTK ilə Əbülfət Mövlud oğlu Kərimov arasında bağlanmış Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçəsi, 104 nömrəli mənzilə dair müqavilə itdiyi üçün etibarsız sayılır.

## BİLDİRİŞ

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən **"Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatları"n satın alınması** məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş tender prosedurunun qalibləri **"Zeytun Pharmaceuticals" MMC, "Avromed Company" QSC, "Diamed Co" MMC, "Azfar Med" QSC, "Medsol" MMC, "Supplimed" MMC, "Arash Medical Company" QSC, "Terra Pharm" MMC** və **"Xanni-2017" MMC** müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə **"Zeytun Pharmaceuticals" MMC, "Avromed Company" QSC, "Azfar Med" QSC, "Medsol" MMC, "Supplimed" MMC, "Arash Medical Company" QSC, "Terra Pharm" MMC** və **"Xanni-2017" MMC** arasında 05 sentyabr 2023-cü il tarixdə, **"Diamed Co" MMC** arasında isə 07.08.2023-cü il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, katibliyin rəhbərliyi və əməkdaşları Komissiya Katibliyinin Hüquq şöbəsinin baş məsləhətçisi

**MƏQSƏD ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əmiraslan Hüseynov Aidə və Xanım bacılarına anaları

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əmiraslan Hüseynov Şamil Süleymanova bacısı

**SƏRİYYƏ QASIM QIZI QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5541
Sifariş 2391

Qiyməti 40 qəpik